№ 260 ISSN 1027-3875 31 dekabr 2008

KHAZAR VIEW

XƏZƏR

XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.Rzaqızı
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. Rzaqizi
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



Hamlet İsaxanlı
ÖMƏR XƏYYAM – BÖYÜK ÇOXBİLGİN 8

"ÖKÜZ İLİ" BİZƏ NƏ VƏD EDİR 20





Bəhlul Abdulla
SEVGİ POEZİYAMIZA SEVGİ... 22

ƏLİ BABAYEV
Dinlərarası dialoq:
AZƏRBAYCAN TOLERANTLIQ MƏKANIDIR 28



USAQ DÜNYASI
34



UNİVERSİTƏ XƏBƏRLƏRİ

XƏZƏR UNİVERSİTƏSİNDƏ BEYNƏLXALQ SEMİNAR



Dekabrın 15-19-da Xəzər Universitəsində Almaniyanın INWENT təşkilatı tərəfindən "Elektron öyrənmə strategiyalarının inkişafı" və "Distant təhsilə giriş: alətlər, metodlar və idarəetmə" mövzularında beynəlxalq seminar keçirilmişdir.

Seminarda INWENT təşkilatının nümayəndələri Hans-Jürgen Weißer və Carlos Zárate-Espinoza, Təhsil Nazirliyindən, Azərbaycanın bir sıra ali məktəblərindən, elmi-tədqiqat mərkəzlərindən və qeyri-hökumət təşkilatlarından nümayəndələr iştirak etmişlər. Xəzər Universitəsini seminarda Kompüter Elmləri Departamentinin müdiri Dr.Leyla Muradxanlı təmsil etmişdir.

Beş gün davam edən bu seminarın məqsədi Azərbaycanda elektron öyrənmə strategiyalarını və distant təhsili inkişaf etdirmək idi. Bu müddətdə iştirakçılar alman mütəxəssislərinin distant təhsil sahəsində təcrübəsi ilə tanış olmuş, maraqlı müzakirələrdə iştirak etmiş və Azərbaycanda distant təhsili inkişaf etdirmək üçün müxtəlif strategiyaları nəzərdən keçirmişlər.

Seminar iştirakçıları əmin olduqlarını bildirmişlər ki, Almaniyanın INWENT təşkilatının Azərbaycan üçün Distant Təhsilin Inkişafı layihəsi Azərbaycanda elektron öyrənmə və distant təhsilin inkişafına və təhsildə geniş tətbiqinə səbəb olacaqdır.



ELM VƏ SƏNƏT MƏCLİSİNİN NÖVBƏTİ MƏŞĞƏLƏSİ



Dekabrın 16-da "Elm və sənət məclisi"nin növbəti – iyirmi üçüncü məşğələsi oldu. "Ziqmund Freyd – psixoanalizin atası" mövzusunda keçirilən məşğələni Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı açaraq, Freydin psixoloji təlimi, bu təlimə əsaslanan müxtəlif fəlsəfi və psixoloji cərəyanları ehtiva edən freydizm haqqında ümumi məlumat verdi.

Xəzər Universitəsinin müəllimi Ülkər İsayeva "Ziqmund Freyd – psixoanalizin atası" mövzusunda məruzə etdi; Freydin psixoanaliz və psixopatologiya sahəsindəki tədqiqatları haqqında geniş məlumat verərək, onu psixoanalizin banisi kimi səciyyələndirdi.

Məruzə ətrafında müzakirələrdə Xəzər Universitəsi Lüğət və Ensiklopediya Mərkəzinin direktoru, professor Tofiq Abasquliyev, AMEA Tarix İnstitutunun əməkdaşı Solmaz Tohidi-Rüstəmova, psixoloq Elmira Mirzəyeva, Xəzər Universitəsinin müəllimi Ağalar Məmmədov, BDU-nun magistri Elxan Əjdərov çıxış edərək, Freyd və freydizmlə bağlı müxtəlif məsələlərdən danışdılar.

PROFESSOR ANTHONY S. WINER "AMERİKAŞÜNASLIQ" DƏRSİNDƏ

Amerikalı professor Anthony S. Winer William Mitchel Hüquq Kollecində beynəlxalq hüquq ixtisasının həm tədrisçisi, həm də bu sahə üzrə araşdırmaların və layihələrin müəllifidir. Konstitusiya hüququ və inzibati hüquq sahəsində də bir sıra tədqiqatları var. "Reagan Doktrinası və 2003-cü ildə İraqın təcavüzə məruz qalması", "Evliliklə bağlı islahatlar Minnesotadakı demokratiyaya necə təsir edir?", "Gələcək rəqabətlərin doğru aparılması ilə bağlı nəzəriyyənin tətbiqi" və s. məqalələrin, "Beynəlxalq ictimai hüququn əsas araşdırmaları" kitabının müəllifidir. 1997-2001-ci illərdə Minnesota Dövlət Vəkillər Kollegiyası və Amerika Vəkillər Kollegiyasında müxtəlif vəzifələrdə çalışmışdır. Hal - hazırda Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında dərs deyir.



Dekabrın 16-da Anthony S. Winer Humanitar və sosial elmlər fakültəsinin müəlliməsi Xəyalə Məmmədovanın təşəbbüsü ilə "Amerikaşünaslıq" dərsimizdə qonaq oldu. Onu da qeyd edək ki, bu, Winerin Xəzər Universitəsinə ilk gəlişi deyildi; belə ki, qonaq 2004-cü ildə Xəzər Universitəsinin Hüquq fakültəsində bir sıra layihələrdə iştirak etmiş və müəllimlər üçün təşkil olunan təlimlərin aparıcısı olmuşdur.

Qonağı dəvət etməkdə əsas məqsəd "Amerikaşünaslıq" dərsində keçdiyimiz əsas mövzular ("Amerika Konstitusiyasında edilən dəyişikliklər və təsiri",



"Amerikanın bir demokratik dövlət kimi apardığı xarici siyasət", "Beynəlxalq arenada bu gün Amerika necə tanınır?", "Beynəlxalq təşkilatların təsir dairəsi", "Bugünkü iqtisadi böhranın yaranmasında Amerikanın rolu" və s.) haqqında bilik dairəmizi daha da genişləndirmək, bir mütəxəssis kimi onun təcrübə və biliyindən faydalanmaq idi.

Winer mühazirəsində tələbələrə Amerika Konstitusiyasında edilən dəyişikliklər və onların cəmiyyət həyatına təsiri, beynəlxalq hüququn müxtəlif aktual məsələləri haqqında geniş, maraqlı və dəyərli məlumatlar verdi. ABŞ-ın bəzi ştatlarında ölüm hökmünün hələ də mövcud olduğunu, Amerikanın son zamanlar apardığı xarici siyasəti təqdir etmədiyini və buna görə bir amerikalı və hüquqşünas kimi Amerikanı qətiyyətlə demokratik dövlət olaraq qəbul etmədiyini söylədi. Sonra tələbələrin çoxsaylı suallarını cavablandırmağa başladı. Tələbələr, əsasən, ABŞ da baş verən hadisələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, bununla bağlı BMT-nin 4 qətnaməsinin təsirsiz qalması, digər təşkilatların münaqişənin həllində rolu və s. haqqında suallar verdilər.

Sonda qonaq Azərbaycanla bağlı xoş təəssüratlarından danışdı, Azərbaycan dilini öyrənməyə çalışdığını söylədi. Xəzər Universitəsində yenidən mühazirə oxumaqdan məmnun olduğunu qeyd edərək, bunun üçün Xəyalə xanım Məmmədovaya və bu cür şəraiti yaratdığına görə universitəmizin rektoru, professor Hamlet İsaxanlıya öz dərin minnətdarlığını bildirdi.

Sevda MƏMMƏDOVA,
Humanitar və sosial elmlər fakültəsinin 4-cü kurs tələbəsi

İCTİMAİ TV-DƏ "AÇIQ DƏRS"

Dekabrın 17-də İctimai TV-də "Açıq dərs" proqramı təhsil problemlərinə həsr olunmuşdu. Verilişə dəvət olunmuş Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı mütəxəssislər qarşısında verilən sualları cavablandırdı.

GUEST LECTURER AT KHAZAR UNIVERSITY





*The **Institute of Politics** organized a lecture on the topic **"The Future of the Middle East"** given by **Israeli Professor Barry Rubin,** Director of Global Research for International Affairs (GLORIA) Center and Editor of Turkish Studies Journal on **December 17, 2008.** Director of the Institute of Politics Baba Bayramli thanked the guest lecturer for visiting Khazar University and introduced him to participants. Prof. Barry Rubin talked about the processes taking place in the wide Middle East region and perspectives of the Middle East peace process. Students asked the guest lecturer questions concerning problems of the region and made their comments.*

MƏKTƏBDƏ GÖRÜŞ





Dekabrın 18-də Bakıdakı 190 saylı məktəbdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı ilə görüş keçirildi. Görüşdə şagirdlər, müəllimlər, jurnalistlər, tələbələr, Səbail Rayon İcra Hakimiyyətinin nümayəndələri, rayon Ağsaqqallar Şurasının sədri iştirak edirdilər. Məktəbin direktoru Afət Bakıxanova və direktor müavini Qənirə Əmircanova, yazıçı və mədəniyyətşünas Aydın Xan Hamlet İsaxanlının həyat və yaradıcılığı haqqında çıxış etdilər. Şagirdlər Hamlet İsaxanlının şeirlərini söylədilər. Hamlet İsaxanlı çoxsaylı suallara cavab verdi və görüş iştirakçılarının xahişi ilə öz şeirlərindən bir neçəsini oxudu.

MİLLİ MƏCLİSDƏ MÜZAKİRƏ

Dekabrın 22-də Azərbaycan Milli Məclisində təhsil qanununun layihəsi müzakirə olundu. İclasa Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da dəvət olunmuşdu. O, layihə barədə öz fikir və qeydlərini söylədi.

BALACA DOSTLARIMIZA BAYRAM HƏDİYYƏSİ

Artıq hamımızın səbirsizliklə gözlədiyi yeni il gəlir. Təbii ki, Xətai rayonundakı 3 nömrəli Günəş" uşaq evinin balaca sakinləri də, hər il olduğu kimi, bizi – universitəmizin tələbələrini və hədiyyələrini gözləyirdilər. Biz isə, öz növbəmizdə, onların gözünü yolda qoya bilməzdik. Buna görə də, fakültəmizin tələbələri Nurlan Məmmədrzayev və Kənan Musayev kömək məqsədilə xeyriyyə konserti təşkil etmək qərarına gəldilər.



Dekabr ayının 22-də fakültəmizin tələbələrinin, xüsusən də Kənan və Nurlanın çalışqanlığı və təbii ki, inzibati şöbənin müdiri Nanə xanım Kələntərovanın böyük köməyi ilə konsertimiz baş tutdu.

Konsert çox maraqlı keçdi. Hər halda, tamaşaçıların sona kimi zalda qalmalarından da belə nəticəyə gəlmək olardı. Niyə də maraqlı olmayaydı?! Axı bütün çıxışlar gənclərin ruhuna tam uyğun idi: çoxumuzun sevə-sevə dinlədiyi rep, heyrətlə tamaşa etdiyimiz "break-dance", şən hazırcavablar klubunun, gənc müğənnilərin və xüsusilə öz universitəmizin rəqs ansamblının gözəl çıxışları tamaşaçıları razı saldı.



Ən əsası isə o oldu ki, xeyriyyə konsertindən toplanan vəsaitlə balaca dostlarımıza istədikləri hədiyyələri ala bildik və dekabrın 26-da əlidolu onların görüşünə getdik. Olduqca səmimi şəraitdə keçən görüşdə balacaların hər birinə bayram hədiyyəsi təqdim etdik, onları sevindirdik.

Balaca dostlarımızla bayram görüşümüzün baş tutmasına köməklik göstərdiklərinə görə xeyriyyə konsertinin təşkilatçılarına və çıxış edənlərə dərin minnətdarlığımızı bildiririk.



Xatın ƏSGƏROVA,
İqtisadiyyat və menecment fakültəsinin 3-cü kurs tələbəsi

ÖMƏR XƏYYAM – BÖYÜK ÇOXBİLGİN

Hamlet İsaxanlı



Tanınmış iş və fikir adamı Əli Poladın tərtib etdiyi "Ömər Xəyyam. Rübailər" kitabı iri formatda və çox nəfis dizaynda işıq üzü görmüşdür ("Səda" nəşriyyatı, 2008, İSBN 5-86-874-664-07). Kitabın həmredaktoru olan Hamlet İsaxanlının "Ömər Xəyyam – böyük çoxbilgin" adlı yazısı da kitaba daxil edilmişdir. Həmin məqaləni oxucularımızın diqqətinə çatdırırıq.

Yaradıcı insanların bir qismi tək bir sahədə deyil, iki, üç, dörd və daha çox sahələrdə fəaliyyət göstərməyə müvəffəq olur, bəşər övladını heyrətləndirir, özünə qarşı məhəbbət və ehtiram doğurur. İnsan zəkasının, insan yaradıcılığının heyrətamiz çoxşaxəliliyi həm onun sağlığında, həm də çox-çox sonra dünyaya gələnlər arasında təəccüb qarışıq iftixar hissi oyadır. İnsan qüdrətinin ağlasığmaz zilə qalxması düşünən, yazıb-yaradan zümrənin ilham qaynağına çevrilir.

Aristotel, əl-Fərabi, əl-Biruni, İbn Sina, Ö. Xəyyam, Nəsirəddin Tusi, İ.Nyuton, G.Leybnits, İ.Gothe kimi insanlar öz yaradıcı fəaliyyətində elm və sənətin az qala bütün sahələrinə toxunmuş, bəşər tarixini irəli aparan, zənginləşdirən əsərlər yaratmışlar. Bu cür çoxşaxəli fəaliyyət göstərən hərtərəfli və dərin bilik, bacarıq və yaradıcı gücə sahib olan insanlara müxtəlif dövrlərdə, müxtəlif dil və mədəniyyətlərdə cürbəcür adlar vermişlər. Çox sahələrdə çalışan və geniş bilik dairəsi olan insanlara Avropada çox vaxt Renessans insanı, bəzən də universal şəxs (Homo Universalis) demişlər (və deyirlər). Daha yeni zamanlarda hərtərəfli alim və yaradıcı şəxslər barədə yunancadan gələn və çox öyrənmiş adam mənasını verən Polymath (Polimat) kəlməsi, eləcə də ensiklopedist alim, ensiklopedist yaradıcı insan kəlmələri işlənilir. Hərtərəfli və dərin bilik sahibi olan və geniş sahələrdə yüksək zəka və sənət nümayiş etdirən şəxsləri Azərbaycan türkcəsində ***çoxbilgin*** sözü ilə ifadə etməyi təklif edirəm.



Aristotel

Çoxbilginlik daha çox orta əsrlərə xas olan hadisədir.

Üç növ yaradıcı fəaliyyətdən bəhs etmək olar: elm, sənət-incəsənət və qurucu-ictimai iş. Çoxbilginlik - elmə, sənətə və bir sıra hallarda qurucu-ictimai işə eyni zamanda nüfuz etməyə, bu sahələrdə öz sözünü, öz gücünü və istedadını nümayiş etdirmə-

yə qadir olan insanların fəaliyyəti - daha çox orta əsrlərə xas olan hadisədir. Riyaziyyat və təbiət elmləri, texnologiya və tibb, orta əsrlər universalizminin mühüm əlaməti olan fəlsəfə, ədəbi yaradıcılıq və tarix, musiqi, təsviri incəsənət, quruculuq və idarəetmə - bunlardır böyük xarakterlərin, istedadlı insanların marağına səbəb olan və bütövlükdə və ya qismən onların yaradıcılıq meydanına çevrilən sahələr.

Qədim, antik çağın universalları filosoflar idi, hər şeyi bilən, hər şeyi araşdıran, hər sahədə söz demək vəzifəsi olan filosof əslində geniş əhatəli elm adamı idi, buna ən parlaq misal Aristoteldir. Hərçənd ki, böyük filosof olmaq, heç də yaxşı riyaziyyatçı olmaq ilə eyni deyildi. Platon və Aristotel də daxil olmaqla qədim dünyanın heç bir filosofu nəinki Arximed və Evklidlə hətta onlardan daha az tanınmış riyaziyyatçılarla müqayisə olunmaq səviyyəsində riyazi biliklərə sahib deyildilər. Antik çağda da riyaziyyat üzrə ixtisaslaşmaq lazım gəlirdi, riyaziyyat xüsusi, riyazi istedad tələb edirdi. Filosoflar digər bütün sahələri əhatə edib yaradıcı işlə məşğul ola bilir, riyaziyyatı isə anlamağa və imkan daxilində ondan istifadə etməyə çalışırdılar.




Riyazi yaradıcılığa meyl edənin astronomiya və musiqi ilə məşğul olması da təbii idi, çünki sonuncular riyaziyyatın qolları hesab edilirdi.

Ədəbi yaradıcılıq və təsviri incəsənət əksər hallarda insanı yalnız bu sahələrlə məhdudlaşdırmağa meylli idi; şair şair idi, rəssam isə rəssam, onların digər maraqları vardısa, bu, indiki dillə desək, hobbi xarakteri daşıyırdı. Tarixdə belə olub, indi də belədir. Yalnız istisna hallarda görkəmli şair və ya rəssam təbiətşünas kimi də tanına bilər, bu sahədə də yaradıcı fəaliyyətdə ola bilər – Leonardo da Vinçi və İ. Goethe kimi.



Quruculuq və idarəetmədə fərqlənmək, böyük işlər görmək isə padşahlıq, vəzirlik, sərkərdəlik etməklə, bir və ya bir neçə (bəzən çox) qurumun təsisçisi və ya müdiri olmaqla bağlıdır.



İki mədəniyyət

Tarixə, çoxbilginlərin həyat və fəaliyyətinə diqqət etdikdə gerçək universallığın daha çox riyaziyyat və təbiətşünaslıq üzərində qurulduğunun şahidi oluruq. Bu sahələrdə böyük istedad sahibi olan insanın başqa sahələrdə də parlaması ehtimalı mövcuddur. Bunun səbəbi riyaziyyat və təbiətşünaslığa xas olan iti zəka, məntiq və genişlik, həmçinin təbiətşünasın fərdə və cəmiyyətə təbiətin gözü ilə baxmaq imkanına malik olmasıdır. Digər tərəfdən, riyaziyyat və təbiət elmlərini "sonradan" öyrənməyin müşkül məsələ olduğu yaxşı məlumdur. İnsanın içində yaşayan şairliyin sonradan və yavaş-yavaş üzə çıxması mümkün olan işdir, lakin şairin, tarixçinin, rəssamın sonradan riyaziyyat və ya fizikada mühüm elmi nəticələr almaq imkanı və ehtimalı yox dərəcəsindədir.



Əlbəttə, burada riyazi düşüncə və təbiətşünaslıq üsulları ilə humanitar düşüncə tərzi arasındakı fərqləri, insanın bu və ya digər sahəyə meyl etməsi səbəblərini mövzu edən "iki mədəniyyət" problemi meydana çıxır. Hər zaman müzakirə mövzusu olan bu hadisə britaniyalı fizik və yazıçı C.P.Snow'nun (1905-1972) "iki mədəniyyət" adlı yazısı ilə 20-ci yüzilliyin ikinci yarısında, dar sahədə ixtisaslaşmanın təbii olduğu bu yeni dövrdə bir daha dəyirmi masalara, mübahisələrə, kəllə döyüşünə gətirib çıxardı. Çoxbilginlərin varlığı bu iki mədəniyyətin çatışmada olmadığını göstərən ən tutarlı arqumentdir. Lakin bu an bu mövzuya xüsusi toxunmaq imkanımız yoxdur.

Riyaziyyatçı, filosof, ilahiyyətçi şair

Ömər Xəyyam (1048 – ≈1131) öz zəmanəsində riyaziyyatçı, filosof və ilahiyyətçi kimi məşhur olmuş, müasirləri onu Hakim, Hüccət əl – Haqq (Haqqın göstəricisi, sübutu), İmam, Əllamə...adlandırmış, "dövrümüzün ən bilikli insanı, ən iti ağıl sahibi, ən yaxşı riyaziyyatçısı" kimi ifadələrlə qiymətləndirmiş, dini-fəlsəfi, riyazi suallarla ona müraciət etmiş, təbiətşünaslığa, astronomiyaya aid məsələlərin həlli üçün ondan yardım istəmişlər. Sultanlar, vəzirlər, ən məşhur şair və mütəfəkkirlər onunla yaxınlıq etməyə çalışırdılar.

Doğrudan da, dahi çoxbilginlər İbn Sina (980-1037) və Biruni dən (973-1048) sonrakı dövrdə lider rolunu oynamağa uyğun şəxs, çoxbilgin Xəyyam idi. Xəyyamın müasiri olan böyük ilahiyyatçı, filosof, sufi, hüquqşünas Əbu Həmid əl-Qəzali (1058-1111) riyaziyyat və təbiətşünaslıqdan çox uzaq idi. Xəyyam öz növbəsində İbn Sina və Biruni qədər, eləcə də əl-Qəzali və digər bir sıra istedadlı müasirləri qədər məhsuldar deyildi,


İ. Nyuton


G. Leybnits

az və qısa yazırdı. Lakin onun parlaq riyazi istedadı özündən əvvəl əldə olunmuş elmi nəticələrdən istifadə etməklə mühüm və çətin problemlərin orijinal həllini tapmağa kömək edirdi.

O, özünü İbn Sinanın tələbəsi hesab edirdi, bəzi tarixi qaynaqlara görə İbn Sinanın tələbəsi Bəhmənyardan dərs almışdı.

Müasir oxucu, qərbli və ya şərqli olsun-fərqi yoxdur, Ömər Xəyyam dedikdə birinci növbədə məşhur rübai ustasını, rübailər müəllifini göz önünə gətirir. Sonra isə təəccüblə Xəyyamın həm də istedadlı riyaziyyatçı və filosof olduğu, geniş əhatəli bilik sahibi kimi tanındığı barədə eşidir, bəzən də bu məlumatı o, rübailər kitabına yazılmış giriş sözündən alır; əlbəttə ki, burada söhbət xüsusi, ixtisaslı oxuculardan getmir.


Ömər Xəyyam rübailərinin şöhrəti, yazılma, yayılma və tərcümə tarixi ən maraqlı mövzulardan biridir, bu barədə yazılmış məqalə və kitabların sayı-hesabı yoxdur. Xəyyam rübalərinin maraqlı olduğu qədər də

dolaşıq olan qəribə tarixi var. Bu barədə xüsusi söhbət açmadan - riyaziyyat, fəlsəfə və digər sahələrdə Xəyyamın gördüyü işlərə çox qısa nəzər saldıqdan sonra - ümumi bir fikir söyləmək olar.

Xəyyam irihəcmli əsərlər yazmamışdır

Xəyyamın riyaziyyata aid üç, musiqiyə aid bir, mexanikaya aid bir, fəlsəfəyə aid altı əsəri məlumdur. Ənənəvi olaraq Xəyyama aid edilən, "Novruznamə" adı ilə tanınan tarix və etimologiya haqqında əsərin Xəyyamın qələmindən çıxmış olduğuna mütəxəssislər şübhə ilə yanaşırlar (əslində, əsasən bunu təkzib edirlər). Üç hissədən ibarət bu əsərin, olsa-olsa, yalnız bir hissəsinin Xəyyama məxsus ola bilməsi ehtimalı mövcuddur. Bu əsərin üslubiyyət cəhətdən Xəyyama yaxın gəlmədiyi, ordakı səhv və səliqəsizliyin Xəyyama xas olmadığı göstərilir.

Bunlardan əlavə, Xəyyam İbn Sinanın bir əsərini ərəbcədən farscaya çevirmişdi (müəyyən şərhlərlə).



Arximed



Johann Wolfgang Von Goethe

Xəyyam iri həcmli əsər yazmamışdır. Lakin bütün əsərləri orijinal ideya, dəqiq və lakonik dil və güclü məntiq üzərində qurulmuş, həsr olunduğu məsələnin orijinal həllini özündə ehtiva etmişdir. Bu cəhətdən onun poetik istedadının məhz rübailərdə parlaması, qısa sözlə orijinal fikir ifadə etmək ustalığı təəccüb doğurmamalıdır.

Riyazi əsərləri üçüncü dərəcəli cəbri tənliklərin həndəsi yolla həllinə, Evklidin beşinci – paralellik postulatının orijinal ekvivalentinin tapılmasına, irrasional ədədlərə cəbri yanaşma məsələsinə, riyaziyyatın fəlsəfi və tarixi məsələlərinə həsr olunmuşdur.

Evklidin beşinci postulatına aid araşdırmalarda Avropada Sakkerinin adı ilə tanınan dördbucaq riyaziyyat tarixi üzrə mütəxəssislərin əməyi və səyi nəticəsində Xəyyam-Sakkeri dördbucağı adlandırılmağa başlanıldı. Özündə Qeyri-Evklid həndəsəsi ideyasını daşıyan bu məsələnin sonrakı inkişafında Nəsirəddin Tusinin (1201-1274) rolunu da qeyd etmək lazımdır.

Xəyyamın böyük sələfi Məhəmməd əl-Xarəzmi (≈ 780 - ≈ 850) ikinci dərəcəli (kvadrat) tənliklərin cəbri yolla, yəni düstur vasitəsi ilə həll olunduğunu göstərmiş, bununla da cəbr elminin əsasını qoymuşdu; yaxşı məlum olduğu kimi, cəbr sözünün özü əl-Xarəzminin uyğun əsərinin adından götürülmüşdür. Xəyyama (sonralar məlum olduğu kimi səhvən) elə gəlirdi ki, üçüncü dərəcəli (kub) tənlikləri cəbri yolla, düstur vasitəsi ilə həll etmək mümkün deyil. Ona görə də, Xəyyam kub tənliklərin həndəsi yolla, konik kəsiklər vasitəsi ilə həlli məsələsini araşdırdı və bu yolda dərin nəticələrə gəlib çıxdı, sonralar cəbri həndəsə deyiləcək mühüm elmi istiqamətin müəyyən ideyalarını ortaya qoydu. Üçüncü və dördüncü dərəcəli tənliklərin həlli düsturları 16-cı əsrdə İtaliyada kəşf olundu (bu, Avropada riya-



Euklid von Alexandria



Plato

ziyyatın şərqdən fərqli ilk uğuru sayıla bilər). Ümumiyyətlə, ixtiyari dərəcəli cəbri tənliklərin dörd hesab əməliyyatı və radikallar vasitəsi ilə düstur şəklində həllinin mümkün olub olmaması məsələsi və mümkünlük əlamətlərinin (kriteriyalarının) müəyyən edilməsi yalnız 19-cu əsrdə tam həll olundu. Burada əsas problem öz həllini iki gənc riyaziyyatçı - fransız Evarist Qalua (1811-1832) və norveçli Niels Henrik Abelin (1802-1829) dahiyanə əsərlərində tapdı.

Mexanika, musiqi, astronomiya

Xəyyamın mexanikaya aid qısa çalışması Arximedin hidrostatik prinsipinin tətbiqinə həsr olunmuşdur. Musiqi nəzəriyyəsinə aid qısa əsəri Evklidin tonallıq haqqında uyğun əsərinin şərhi və davamı kimi qəbul edilə bilər. Əsər musiqi şkalasının təsnifatına, 21 tetraxordun (dördpilləli səs sırasının) riyazi müzakirəsinə və səslənmə (sonor) növlərinə həsr olunmuş, Xəyyam burada Ptolomey, əl-Fərabi və İbn Sinanın uyğun əsərlərindən də faydalanmışdır.

Xəyyamın bizə məlum olan fəlsəfi əsərləri əsasən İbn Sinanın fəlsəfi görüşlərinin təsiri altında yazılmış altı qısa yazıdan ibarətdir. Bu yazılar Allahın varlığı və eyni zamanda zülmün mövcudluğu problemi, azad iradə və determinizm, varlıq (varoluş) və vəzifə (borc), mahiyyət və mövcudiyyət (vücud) arasında münasibət, təsadüf, zaman və hərəkət, ruh və bədən kimi məsələlərin müzakirəsinə həsr olunmuşdur. Burada həmin əsərləri xüsusi müzakirə etmək fikrində deyilik.

Xəyyamın yaradıcılığında yadda qalan və çox danışılan məsələlərdən biri də onun yeni təqvim hazırlamasıdır. O, Nizam əl-Mülklə dost idi. Nizamülmülk Xəyyamı Sultan Cəlaləddin Məlik şaha təqdim etmişdi. Sultan Xəyyama yeni günəş təqvimi düzəltməyi tapşırmışdı. Xəyyam bir neçə mütəxəssisi də cəlb etməklə Səlcuqların paytaxt şəhəri İsfahanda bu məsələnin üzərində çalışmışdı.



Leonardo da Vinçi



C.P.Snow

Təqvim işi ilə heç tanış olmayanlar üçün kiçik izahata ehtiyac ola bilər. Astronomiyanın yaranma səbəblərindən biri zamanı ölçmək və təqvim düzətmək istəyi, zərurətidir. Təqvim düzəltmənin əsas problemi ili (günəş ilini) təşkil edən gün sayının tam ədəd olmaması, hətta dəqiq kəsr ədəd də olmamasıdır; bu ədəd (Yerin Günəş ətrafında tam dövr müddəti) təqribən 365 gün 5 saat 48 dəqiqə 46 saniyədir... Və təqvim məsələsinin canı da ilin uzunluğunu, yəni günlərin sayını hesablayıb həqiqətdə olduğuna yaxınlaşmaqdan ibarətdir. Belə olduğu halda məsələnin həlli üçün bəzi illəri 365, digərlərini 366 gün qəbul etmək lazım gəlir, üstəlik, müəyyən müddətdən sonra müəyyən bir ilə yeni, əlavə gün artırmaq zəruri olur. Bu

məsələnin ideal həlli olmadığı üçün nisbətən daha dəqiq, uzunömürlü və istifadə üçün yararlı təqvim hazırlamaq məqsədi qarşıya qoyulur. Xəyyamın tədqiqatçılar dəstəsi bu məsələni araşdırmış və *Cəlali təqvimi* adlı bir günəş təqvimi düzəltdi. Bu təqvimə görə, yalnız təqribən 4500 ildən bir təqvimə yeni gün atırmaq lazım gəlir. Halhazırda istifadə edilən Qriqorian təqvimində isə bu günartırma işi 3323 ildən bir baş verir (yəni Cəlali təqvimi daha dəqiqdir).

İslam dünyasının elm, sənət və texnologiya sahəsində əldə etdiyi böyük nailiyyətlərin avropalılar tərəfindən mənimsənilməsi Avropanın inkişafında fövqəladə rol oynadı. 12-ci əsrdən başlayaraq müsəlman alim və mütəfəkkirlərin riyaziyyat, astronomiya, kimya, tibb, fəlsəfə və digər sahələr üzrə kitabları latıncaya və canlı Avropa dillərinə tərcümə olunub oxundu, öyrənildi, ümumiləşdirildi, Avropada yeni tədqiqatların əsasında dayandı. Çoxsaylı müsəlman çoxbilginləri, çoxu da avropa-



Məhəmməd əl-Xarəzmi

laşmış adları ilə, elmi dairələrdə və universitələrdə əsas oxu, isnad və dayaq qaynağına çevrildilər. Bir sıra hallarda böyük elmi kəşflər haqqında verilən "avropalı alimin öz əməyidir, yoxsa əsas ideya və metod müsəlman alimin elmi əsərindən götürülmüşdür?" sualının cavabı bu günə kimi məlum deyil. Lakin bu prosesdən kənarda qalan, adları və əsərləri o zamankı Avropada elmi dövrəyə daxil olmayan müsəlman mütəfəkkirləri daha çox idi. Bun-



Niels Henrik Abel

ların sırasında Ö. Xəyyam da vardı. Xəyyamın riyaziyyatda əldə etdiyi dərin nəticələr, təəssüf ki, Avropada xeyli sonralar, 19-cu əsrin ortalarında məlum oldu və yalnız elm tarixi baxımından əhəmiyyət qazandı.

Müasirləri Xəyyamın şairliyindən söhbət açmır...

Müasirləri Xəyyamı hakim, riyaziyyatçı, filosof və ilahiyyatçı kimi, bərabəri olmayan ge-



Abu Hamid al-Ghazali

niş və dərin bilik sahibi kimi təqdim edir, lakin onun şairliyi barədə heç söhbət açmır, heç nə demirlər. Məşhur şair Sənai Xəyyamla yaxşı tanış idi, Xəyyam haqqında çox tərifli fikirlər söyləyərkən onun şair olduğu barədə bir söz belə demir...Xəyyam dünyasını dəyişəndən sonra da, 80-90 il ərzində onun heç bir rübaisi haqqında söz açan yoxdur. Ümumiyyətlə, 12-ci əsrə aid qaynaqlarda Xəyyamın şair olması haqqında bir söz belə yoxdur, yalnız bir yerdə "Xəyyamın ərəbcə bir şeiri var" deyilir və elə oradaca həmin şeir verilir. Bu hadisə Ömər Xəyyamın şair olmadığı fikrinin yaranmasına səbəb oldu. Bu rübailərin məşhur hakim, riyaziyyatçı Ö. Xəyyama dəxli olmadığı, onların Xəyyam və ya Xəyyami adında başqa bir şair tərəfindən yazıldığını irəli sürənlər meydana çıxdı. Üstəlik, müasirləri arasında qeyri-adi hörmət qazanan, həyatı, dini-fəlsəfi və digər əsərləri ilə mömin müsəlman olduğunu bir da-



ha sübut edən, sultanların, vəzirlərin ehtiram göstərdiyi, İmam, Hüccət əl – Haqq adlandırılan bir şəxsin azadfikirliliyin çox təşviq olunmadığı, cəzalandırıldığı bir dövrdə bu qədər açıq-saçıq, dini ehkamlarla düz gəlməyən ziddiyyətli rübailər yazması mümkündürmü? O dövrdə bu cür rübailər müəllifinə bu qədər ehtiram göstərilərdimi?

Şekspirin də müəllifliyini şübhə altına alanlar var və bu, o qədər də hay-küy, həyəcan və tələş doğurmayıb. Xəyyam halında da Şekspirdə olduğu kimi, "bu məşhur rübailərin müəllifinə Xəyyam deyək" sözü ilə məsələni bitirmək olmazmı?! Sadəcə bizim məsələmizin Şekspir halından bir mühüm fərqi var – Şekspirin şair və dramaturq kimiliyindən başqa kimliyi yoxdur. Xəyyam halında isə "məşhur riyaziyyatçı və filosof Ömər Xəyyam hansı rübailərin müəllifidir və ya o, ümumiyyətlə, şairdirmi, rübailər müəllifidirmi?" sualı özündə əlavə məna daşımaqdadır.

Ümumiyyətlə, rübai müəllifi kimi tarixi Ömər Xəyyamı tam bərpa etmək, yəqin ki, imkan xaricindədir.

Xəyyamın rübailəri haqqında yalnız onun ölümündən 90-100 il keçdikdən sonra yavaş-yavaş məlumat verilməyə başlandı və iki əsr ərzində onun cəmi 16 rübaisi aşkar edildi. Sonrakı əsrlərdə rübailərin sayı artmağa başladı. Onların bir hissəsinin Xəyyama məxsus olmadığı (başqa şairlərin olduğu) meydana çıxdı. Rübailərin mövzu-




suna, poetik keyfiyyətlərinə, digər şairlərin əlyazmalarında tapılmasına və bir sıra başqa xüsusiyyətlərinə görə tədqiqatçılar səhih, etibarlı, yəni, çox güman ki, Xəyyama məxsus olan rübailəri müəyyən etməyə çalışdılar. Bu işi, təbii ki, mükəmməl hesab etmək mümkün deyil. 14-cü əsrin ortalarına qədər toplanmış rübailərdən etibarlı hesab olunanları 36 ilə 178 arasındadır. Xəyyam adı altında toplanan bütün rübailərin sayı isə 1200-1400-ə çıxdı. Tədqiqatçılar arasında "sərgərdan" və ya "gəzəyən" rübailər ifadəsi yarandı, yəni eyni rübainin müxtəlif orta əsr şairlərinin əsərləri içinə düşmüş olduğu aşkara çıxarıldı.

Şair Xəyyamın bəxti 1859-da açılacaqdı...

Xəyyam haqqında daha geniş məlumatın oxucuların marağına cavab verəcəyi fikri ilə müəllifin vaxtilə "Xəzər-Xəbər"də dərc olunmuş "Ömər Xəyyamın rübailəri Azərbaycan türkcəsində" (1 may 2006-cı il) adlı məqaləsindən bir hissəni (aşağıda kursivlə) burada verməyi qərara gəldik.

Xəyyam rübailərinin dünya şöhrəti və Xəyyamşünaslığın inkişafı 1859-cu ildə Edward Fitzgeraldın (1809-1883) ingiliscəyə tərcümə etdiyi 75 rübaini kitab şəklində çap etdirməsi ilə başlayır. Tərcüməçinin kimliyi göstərilməyən bu kitab heç kimin diqqətini cəlb etməsə də, Fitzgerald işini davam etdirdi, son variant



1875-ci ildə çap olunan 101 rübaidən ibarət oldu. Bu dəfə kitabda tərcüməçinin adı da verilmişdi. Tezliklə Fitzgeraldın xeyli sərbəstliyə yol verdiyi, amma Xəyyam rübailərinin məzmun və ruhunu çox məharətlə ingiliscəyə

keçirməyə müvəffəq olduğu rübailər İngiltərə və Birləşmiş Ştatları fəth etdi, ən çox sevilən, ən çox əzbərlənən, heç bir ingilis şairinə nəsib olmayan bir ingilis poetik nümunəsi kimi yayıldı, qeyri-adi şöhrət qazandı. Sonra Xəyyam rübailərinin ümumdünya səyahəti başladı, bütün mədəni xalqlar bu rübailəri dəfələrlə öz dillərinə tərcümə etdilər. Bu barədə həddindən çox yazılmışdır və söhbəti uzatmağa ehtiyac görmürük.

Orta əsrlər Şərqdə şair Ö.Xəyyamın adı Firdovsi, Nizami, Sədi, Cəlaləddin Rumi, Ə.Cami, Hafiz, Ə.Nəvai, M.Füzuli kimi nəhənglərin sırasında tutulurdumu? Bir şey yaxşı məlumdur: Xəyyam Qərbdə ingilisdilli böyük şairlərdən daha çox tanındı, hətta əfsanələşdi. Nəticədə Şərq öz şairini yenidən öyrənməyə məcbur oldu və yəqin etdi ki, Ö. Xəyyam böyük alim olmaqla yanaşı, bəlağətli tərifl ərdən uzaq dayanan böyük şairdir, öz xəyal dünyasından, gerçək həyat barədə düşüncələrindən və təfəkkür gücündən qaynaqlanan dərin mənalı zərif rübailər müəllifidir.



1818-də Avstriya diplomatı və şərqşünası Joseph von Hammer "Persiya bədii ədəbiyyat tarixi" (Geschichte der schönen Redekunste Persien) əsərində farsdilli poeziyanın yeddi ulduzunu müəyyən etmişdi - Firdovsi, Ənvəri, Nizami, Cəlaləddin Rumi, Sədi, Hafiz, Cami. Bu, Avropada şərq poeziyası haqqında kifayət dərəcədə olmasa da, hər halda xeyli ümumi məlumat verən və tərcümələrlə zəngin olan



ilk əsər idi. "Qərb-Şərq Divanı"nı (West – Östlicher Divan) yazarkən J. W. von Goethe'nin şərq poeziyası və folkloru haqqında əsas məlumat qaynağı H.F. von Diez və J. von Hammer'in tərcümələrindən ibarət idi.

Maraqlıdır ki, J. von Hammer bu kitabında Ömər Xəyyam haqqında da məlumat vermiş, onun 25 rübaisini almancaya tərcümə etmişdi. J.von Hammer Ö. Xəyyamı bir qədər sxematik şəkildə belə təqdim etmişdi: "azadfikirli və dini ələ salan, bu baxımdan fars poeziyasının Voltair'i (Volteri) adlana bilər". Lakin, bu tərcümə və məlumat Xəyyamı Avropa və Amerikada tanıda bilmədi.




Xəyyamın bəxti 1859-da açılacaqdı. Edward Fitzgerald ingiliscəyə tərcümə etdiyi rübailər kitabı iki ilə yaxın heç kimi maraqlandırmadı, kitabın qiyməti bir şillinqdən bir pensə endi... və birdən sanki hamı ayıldı... Rübailər ildırım sürəti ilə yayılmağa başladı. (1929-cu ildə kitabın birinci nəşrindən qalan bir nüsxəsi Birləşmiş Ştatlarda səkkiz min dollara satılmışdı!)

E. Fitzgerald, özü demişkən, "rübailəri bir-birinə qatmış, bəzi şeylər itmiş"di. Lakin, o, Xəyyamın ruhunu tutmuş, gözəl imitasiya məharəti ilə oxucunu valeh edə bilmişdi. Onun əsas məqsədi Xəyyamın ideyalar dünyasını ingilis oxucusuna açmaq, Xəyyamın həyat fəlsəfəsini, qəm və nəşəsini ingiliscə ifa etmək idi. Fitzgerald tərcümədə əsas ideya və məzmunu saxlamaqla şair fantaziyasına yer verib bədii gözəllik yaratmağa nail olmuşdu. Onun müasirləri fransız tərcüməçiləri isə "fransız cəmiyyətinin dəyərlərinə uyğun gəlməyən" Xəyyamı dəyişdirib "tərbiyəli" fransıza döndərmək istəmişdilər.

1900-cü illərə yaxın ingilisdilli ölkələrdə Fitzgeraldın ifasında Xəyyamın (Ömər Xəyyam, yoxsa Fitzgerald Xəyyam?!) rübailəri ağlasığmaz populyarlıq qazanmış, bir mania (Omar cult) halına gəlmişdi.

Xəyyamın rübailərində azadfikirliliyin həddini aşdığı qənaətində olan və ciddi narazılığını və narahatlığını bildirən ingilis-amerikan oxucular da az deyildi. Bununla belə, protestant keşiş və şair John White Chadwick'in (1840-1904) dindarları sakitləşdirmək üçün "Old and New" jurnalı vasitəsilə oxuculara müraciəti bir daha "Rübailər"in qeyri-adi cazibəsindən xəbər verir: "Kimsə Ekklesiastın kitabını "bütün qəmli kitabların ən qəmlisi" adlandırmışdı. O, Ömər Xəyyamı oxumayıb. Bu şeirlər "Ekklesiast"dan qat-qat qəmlidir. Birinci ona görə ki, onlar daha xoşahənglidir, ikinci ona görə ki, onlarda daha çox ümidsizlik var; və bir də ona görə ki, onlardakı sözlərin arxasında biz daha nəcib ruhun dayandığını hiss edirik".

Bu tərcümə böyük riyaziyyatçı və astronom Ö. Xəyyamı bütün dünyada, o cümlədən Şərqdə, öz vətəni Iranda böyük şair kimi yenidən tanıtdı. Tərcümənin uğuru qeyri-adi və gözlənilməz dərəcədə yüksək idi, şeirlər başgicəlləndirici bir dünya şöhrəti qazanmış, ingilisdilli ədəbiyyat tarixində özünə klassik əsər kimi yer qazanmış, ən geniş dairələrdə oxunan və sevilən bir poemaya dönmüşdü. 1863-də Jhon Raskin kimliyi hələ məlum olmayan tərcüməçiyə ünvanladığı məktubunda yazırdı: "zənn edirəm ki, bu günə qədər heç vaxt bu poema kimi böyük, parlaq bir şey oxumamışam".


Bəhmənyar

Fitzgerald – Xəyyam triumfu ədəbi Xəyyamşünaslığın da əsasını qoydu! Xəyyam rübailərinin əslini axtarmaq – bu, yüz ildən artıq davam edən cəlbedici elmi mövzu oldu. Cavablar da rəngarəng idi –Xəyyam "şair olmayıb, rübai yazmayıb", "30-40 və ya ən çoxu 70-80 rübai onun özünə məxsusdur", "1000-2000 arasında rübailəri olub" və s. Bunu islam tarixində səhih hədislərin axtarışına bənzətmək olar. Hal-hazırda tədqiqatçıların böyük qismi deyəsən 200 və 400 arasında rəqəmlər üzərində dayanıblar.

Xəyyam, əslində, peşəkar şair deyildi

Xəyyam haqqında onun müasirləri, eləcə də onun tədqiqatçıları tək tərifli sözlər söyləməmiş, onu şübhəçi, materialist kimi qiymətləndirən fikirlər də yaymışlar. Bu işdə, xüsusən sonralar, çox güman ki, rübailərin təsiri və rolu böyük olub.

Onu "bədxasiyyət", "natamam", müəllimlikdən qaçan, yazıda məhsuldar olmayan (bu


Sultan Məlikşah

doğrudan da belədir), şübhə edənlərin imamı (İmam əl-Şəkkakin) adlandıranlar vardı. Rübailər Avropada və Amerikada yayıldıqdan sonra isə onu hedonist, aqnostik, nihilist, ateist, Tanrını ələ salan, materialist, naturalist, inqilabçı, şəhvət düşgünü, əyyaş, mütəfəkkir-əyyaş adlandıranlar az olmadı.

Ümumiyyətlə, riyaziyyatçı-filosof Xəyyamla şair Xəyyam arasında heç bir əlaqənin olmadığı, daha doğrusu, onların bir-birinə zidd gəldiyi, bu iki sifətin bir şəxsdə birləşməsinin bir möcüzə, bir sirr olduğu barədə düşünən və yazanlar az deyil. Bu məsələyə qaynaqların tədqiqi ilə yanaşı, zənnimcə, yaradıcılıq psixologiyası və iki mədəniyyət adlanan problemin gözü ilə də baxmaq lazımdır.

Böyük çoxbilginin görünən tərəfləri kimi görünməyən tərəfləri də ola bilərdi. O, əlbəttə, müasirlərinin gözündə şöhrətli riyaziyyatçı, böyük ilahiyyatçı idi, hakim idi. O, aradabir şeir yazırdısa və onları yaymırdısa, üstəlik elm adamı və filosof kimi çox məşhur idisə, şairliyini müasirləri görməyə də bilərdilər və mümkündür ki, əhəmiyyət ver-

məmişdilər. Bəlkə də o, rübailərini yaşlı vaxtında yazırdı və onun parlaq elmi şöhrəti qarşısında bu hobbi heç gözə də görünmürdü. Orta əsrlər baxımından Xəyyam, rübailər müəllifi kimi, əslində peşəkar şair deyildi. Onun müasirləri olan F.Əttar və Sənai peşəkar şair idilər. Xəyyam ömrünü şairliyə həsr etməmişdi. O, iri həcmli poetik əsərlər yazmamışdı. Dolanışı şairlikdən çıxmırdı. Hökmdarlara poetik mədhnamələr yazmırdı. Paneqirik ədəbiyyatdan çox uzaq idi.

Yeri gəlmişkən, paneqirik olmayan ədəbiyyatın ən görkəmli nümayəndəsi olan dahi ərəb şairi Əbu`l-əla əl-Mə`ərri (973-1057/58) öz fəlsəfi lirikası ilə Ömər Xəyyamın rübai yaradıcılığına təsir etmiş kimi görünür. Hər iki mütəfəkkirin yaradıcılığı ilə tanışlıq istər-istəməz bu fikrə gətirib çıxarır; hər ikisinə xas olan yüksək dərəcədə azadfikirlilik, mütləqlikdən uzaq olmaq, şübhəçilik, təzadlar, lakonik ifadə tərzi... onların mənəvi-ruhi yaxınlığından xəbər verir. Xəyyamın ərəb dilini gözəl bilməsi müasirləri və tədqiqatçılar tərəfindən dəfələrlə qeyd edilmişdir. Onun ərəbcə şeir yazdığı da yaxşı məlumdur. Ərəbcə şeirlərinin birində məqsədə doğru dönmədən irəliləməyin həyati vacib olduğunu vurğulayan Xəyyam:


Nizamülmülk

Bu səbəbdən Türk dövləti belə çox irəli getdi və türk insanları göylərə qalxmaq yoluna qədəm qoydular


- deyə türkləri farslara nümunə göstərir.

Poetik xitab bir rəmzdir, dünyagörüşü deyil

Xəyyamın elmi-fəlsəfi-dini yaradıcılığı ilə rübailəri arasında görünən ziddiyyətlərə başqa tərəfdən də yanaşmaq olar. Poetik rəmzlər çox geniş məna daşıya bilər və müəllifinin dinə və ya digər ideoloji-mənəvi təmələ münasibətinin dəqiq ifadəsi olmaya bilər. Məsələn, dindar olmayan şair də şeirlərində Allaha, Tanrıya müraciət edə bilir, ondan şəfqət və mərhəmət diləyir və ya onu sorğu-suala tutur, ona qarşı üsyan qaldırır.Və ya mömin, amma bilgin bir şair şeirlərində Allaha qəzəblənə bilər, ədalətsizliyə görə onu sorğu-suala tuta bilər.

Poetik xitab bir üsul, bir rəmzdir, dünyagörüşü və inam qaynağı deyil.

Nəhayət, bir fikri də yada salaq. Elm adamının, filosofun şeir yazması elmi-fəlsəfi yolla deyilə bilməyən hiss və həyəcanı ifadə etmək üçündür. İş peşəkar şair


Edward Fitzgerald

olub-olmamaqda deyil, şairliyi məşğuliyyətə çevirməkdə deyil. Elm adamının öz kifayət qədər ağır, faydalı və maraqlı məşğuliyyəti var. Dünyanın, təbiətin sirləri üzərində baş sındıran, başqalarının görmədiyini görə bilən insanda öz hisslərini ifadə etmək istəyi baş qaldıra bilər. Bu hisslər, bu istək niyə də şeirə dönməsin?! Üstəlik, orta əsrlərdə poeziya öz fikrini ifadə etmək baxımından başqa fəaliyyət növlərinə nisbətdə daha təhlükəsiz deyildimi?

Böyük çoxbilgin Ömər Xəyyamın min ilə yaxın davam edən şöhrəti zaman və məkan sərhədlərini yarıb keçmiş, dünyanı fəth etmiş, elm və ədəbiyyat tarixini xeyli zənginləşdirmişdir. Dilindən, dinindən, irqindən asılı olmadan hər kəsə, Ömər Xəyyamla təmasda olmaq, onun ruhunu duymaq istəyən hər kəsə bu zənginlikdən pay düşür. Dünya durduqca Xəyyam kimi böyük çoxbilginlərin işığı daha çox insanlara yayılacaq, onları sevindirəcək, düşündürəcək, təklikdən xilas edəcək.

ELMİ-İNZİBATİ ŞURANIN İCLASI

Dekabrın 17-də Xəzər Universitəsi Elmi-İnzibati Şurasının növbəti iclası olmuşdur. İclasa universitənin rektoru, professor **Hamlet İsaxanlı** sədrlik etmişdir. İclasda:

Kitabxanada və İnformasiya Mərkəzində yaradılmış elektron arxiv haqqında;

Magistr və doktor proqramları və müdafiə qaydaları haqqında əsasnamə;

Elektron kitab və digər nəşrlərin saxlanma və istifadə qaydaları haqqında;

Nizam-intizam qaydaları haqqında;

Cari məsələlər müzakirə olunmuşdur.

Kitabxanada və İnformasiya Mərkəzində yaradılmış elektron arxiv haqqında Kitabxana-İnformasia Mərkəzinin direktoru **Tatyana Zaytsevanın** slaydlarla müşayiət olunan çıxışı, əslində, **Xəzər Universitəsi Elektron Arxivinin təqdimatından ibarət oldu.** O bildirdi ki, hazırda elmi biliklərə Açıq Giriş (AG) Beynəlxalq Hərəkatı getdikcə geniş vüsət alır və bu hərəkatda universitet kitabxanaları aparıcı rol oynayırlar. Elektron arxivin formalaşması prosesində keyfiyyətli materialların hazırlanması və saxlanması, əsas etibarilə, məhz kitabxanalara tövsiyə olunmuşdur. Kitabxanalar alimlər arasında Açıq Girişin faydasını təbliğ etməlidirlər. Bu fayda isə, əsasən, elmi nəticələrin daha sürətlə yayılmasından və istinad edilən məqalələrin sayının artmasından ibarətdir.

T. Zaytseva qeyd etdi ki, xarici elmi nəşrlərə abunə yazılmaq imkanının məhdud olduğu ölkə kitabxanaları üçün AG xüsusilə mühüm əhəmiyyət kəsb edir; yeni açıq xarici mənbələrin vaxtında izlənilməsi alimlərimizə dünya elminin nailiyyətlərindən səmərəli istifadə etməyə, kitabxanalarımıza isə bahalı informasiya bazalarına abunə vəsaitinə qənaət etməyə imkan yaradacaqdır. Çünki AG kütləvi İnternet vasitəsilə müəlliflərə istinad etmək şərtilə mənbələrdən pulsuz istifadə etməyi, onların surətini çıxarmağı, çap etməyi, yaymağı və s.-ni nəzərdə tutur.

T. Zaytseva sözünə davam edərək bildirdi ki, **Azərbaycanda elektron arxiv yaradılması sahəsində ilk addımlar Xəzər Universitəsində atılmış, 2008-ci ilin sentyabrında DSpase Amerika proqramı əsasında elektron arxiv yaradılmış və bu zaman elmi biliklərə AG sahəsində beynəlxalq hərəkatın inkişaf təmayülləri nəzərə alınmışdır.** Elektron arxivin yaradılmasının ilkin mərhələsində Xəzər Universitəsinin dövri nəşrləri olan «Azerbaijani Studies», "Khazar Journal of Mathematics", "Azərbaycan arxeologiyası" və "Xəzər Xəbər" dərgilərindəki mətnlər arxivləşdirilmiş və onların sayı artıq 400-ə çatmışdır. İnternet şəbəkəsi vasitəsilə onlara açıq giriş mümkündür.

T. Zaytseva bildirdi ki, bununla yanaşı, universitə müəllimləri və əməkdaşlarının elmi əsərləri, universitədə müdafiə olunan dissertasiyalar və avtoreferatlar, tədris-metodik materiallar da tədricən elektron arxivdə yerləşdiriləcəkdir. Bunun da nəticəsində Xəzər Universitəsində aparılan bütün tədqiqatlara açıq giriş mümkün olacaqdır ki, bu da universitə əməkdaşlarının elmi nəticələrinin səmərəsini xeyli artıracaqdır.

Magistr və doktor proqramları və müdafiə qaydaları haqqında əsasnamələr haq-

qında universitənin prorektoru **Rafiq Əhmədov** çıxış etdi. Dedi ki, yeni əsasnamələrin layihələri mövcud əsasnamələrin təkmilləşdirilməsi zərurəti meydana çıxdığına görə və dünyanın bir sıra qabaqcıl universitetlərinin, həmçinin Azərbaycan təhsil nazirliyinin, Ali Attestasiya Komissiyasının, ali təhsil müəssisələrinin müvafiq sənədləri və təcrübəsi öyrənilib nəzərə alınmaqla hazırlanmışdır. Sonra R. Əhmədov Magistr və Ph.D dərəcələri haqqında əsasnamələrin quruluşu, mahiyyəti, əvvəlki əsasnamələrdən əsas fərqli cəhətləri haqqında məlumat verdi.

Elmi-İnzibati Şura əsasnamələrin təsdiq olması haqqında qərar qəbul etdi.

Elektron kitab və digər nəşrlərin saxlanma və istifadə qaydaları haqqında "Xəzər Xəbər" jurnalı baş redaktorunun müavini **Əlirza Balayev** məlumat verərək bildirdi ki, Xəzər Universitəsinin nəşrlərinin elektron variantının mühafizəsini təmin etmək haqqında rektor Hamlet İsaxanlının 19 sentyabr 2008-ci il tarixli əmrində bu məsələlər əsas etibarilə əksini tapmışdır. Meydana çıxan müəyyən problemlər əmrin icrası prosesi ilə əlaqədardır üçün universitə üzrə rektorun yeni əmrinə ehtiyac vardır.

Müvafiq əmrin hazırlanması işçi qrupuna tapşırıldı.

Nizam-intizam qaydaları haqqında məsələnin müzakirəsi ilə əlaqədar sədrlik edən **Hamlet İsaxanlı** bildirdi ki, rektorluqda bu məsələ prorektor və fakültə dekanlarının iştirakı ilə müzakirə olunmuş, mövcud qaydalarda zəruri olan dəyişiklikləri etmək qərara alınmışdır. Bu zərurət ondan irəli gəlib ki, universitədə nizam-intizam lazımi səviyyədə deyildir; bu həm inzibati işçilərə, həm də müəllimlərə aiddir. Işə vaxtında gəlməmək, işdən tez getmək halları baş verir. Buna görə də, həm nizam-intizam qaydalarımızı ciddiləşdirməyi, onları tətbiq etməyi, həm də onlara riayət olunmasına ciddi nəzarət etməyi qərara almışıq və əsasnamə layihəsi hazırlanmışdır.

Rektor assistenti **İsaxan İsayev** və Tədris fakültəsinin dekanı **Elza Səmədova** əsasnamə haqqında, nizam - intizama riayət olunmamasına görə nəzərdə tutulmuş cəza tədbirləri haqqında məlumat verdilər.

Qərara alındı ki, əsasnamə dekanlıq və fakültələrdə müzakirə edildikdən sonra təsdiq olunsun və kitabça şəklində buraxılsın.

Cari məsələ kimi universitənin prorektoru, İqtisadiyyat və menecment fakültəsinin dekanı **Məhəmməd Nuriyev** məlumat verdi ki, PhD dissertasiyasının müdafiəsi üçün müdafiə şurasının 13 dekabr 2008-ci il tarixli iclasında PhD tələbəsi Ahmet Bahadır Baysal "Neft sənayesində istehsal və təchizat şəbəkəsinin menecmenti" mövzusunda dissertasiya müdafiə etmiş, Şuranın qərarı ilə ona Menecment ixtisası üzrə PhD dərəcəsi verilmişdir. Dekabrın 15-də Ahmet Bahadır Baysalın dissretasiya işinin müdafiəsinin nəticələri İqtisadiyyat və menecment fakültə şurasının iclasında müzakirə edilərək qərara alınmışdır ki, Müdafiə şurasının Ahmet Bahadır Baysala müdafiə nəticəsində Menecment ixtisası üzrə PhD dərəcəsi verilməsi qərarı universitənin Elmi-İnzibati Şurasına təqdim edilsin.


Elmi İnzibati Şura Müdafiə şurasının həmin qərarını təsdiq etdi.

Məsələlərin müzakirəsində Lüğət və ensiklopediya mərkəzinin direktoru, professor **Tofiq Abasquliyev,** Humanitar və sosial elmlər fakültəsinin dekanı **Cabir Xəlilov**, İqtisadi və biznes təhsili mərkəzinin müdiri **Fuad Rəsulov** və başqaları iştirak etdilər

Elmi-İnzibati Şuranın iclası sədrlik edən **Hamlet İsaxanlının** yekun sözü ilə başa çatdı.

"Xəzər Xəbər"

"Öküz ili" bizə nə vəd edir



BÜRCLƏRIN MÜDDƏT SXEMI

Qoç	*21 mart-20 aprel*
Buğa	*21 aprel-21 may*
Əkizlər	*22 may- 21 iyun*
Xərçəng	*22 iyun -22 iyul*
Şir	*23 iyul- 23 avqust*
Qız	*24 avqust-23 sentyabr*
Tərəzi	*24 sentyabr-23oktyabr*
Əqrəb	*24 oktyabr-22 noyabr*
Oxatan	*23 noyabr-21 dekabr*
Oğlaq	*22 dekabr - 20 yanvar*
Dolça	*21 yanvar-19 fevral*
Balıqlar	*20 fevral-20 mart*



QOÇ

Əgər bu vaxta qədər yalnız maliyyə problemləri, ailə-məişət çətinliklərini aradan qaldırmaq barədə düşünürdünüzsə, 2009-cu ildə karyeranı yüksəltrnək, vətənpərvərlik, yaradıcılıq, valideynə və övlada məhəbbət daha çox diqqət mərkəzinizdə duracaq. Sevgi münasibətləri isə öz ixtiyarınıza veriləcək.

İlk iki ayda əksər sahələr bürcünüz üçün o qədər də səmərəli olmayacaq. Göstərilən ərəfədə daxili orqanlarınızla bağlı problemlərlə üzləşəcəksiniz. Bu səbəbdən də vaxtında tədbir görməlisiniz.

2009-cu ildə biliyinizi artırmaq, istedadlı insanlardan təcrübə toplamaq istiqamətində konkret addımlar da atmalısınız.

Novruz ərəfəsində şəxsi büdcənizi qənaətlə xərcləyin ki, sonrakı iki ayda gözlənilən maliyyə böhranından qurtula biləsiniz.

Ümumi yanaşsaq, ilin birinci yarısı sizin üçün qənaətbəxş olacaq. Əgər boş məsrəflərə pul xərcləməsəniz, ciddi narahatçılığınız olmayacaq. İyuldan sonra ciddi seçim qarşısında qalacağınız güman olunur.

Gələcəyiniz çıxardığınız qərarlardan birbaşa asılı olduğu üçün dəfələrlə götür-qoy etməyiniz lazım gələcək.

Avqustun ortalarından isə bu vaxta qədər gizli fəaliyyət göstərən düşmənləriniz üzə çıxacaq. Həmin müddətdə rəqibinizi konkretləşdirdiyiniz üçün mübarizəniz effektli olacaq. Əgər riskdən qorxmasanız, cəsarətli addımlar atsanız, qələbəyə daha tez yetişəcəksiniz. Amma bütün hallarda siyasi arenaya açıq şəkildə atılmamalısınız.

(ardı sonrakı səhifələrdə)

KHAZAR UNIVERSITY

FINAL EXAM SCHEDULE

Fall, 2008/2009

Department of English Language & Literature

DATE	HOUR	SKILLS	SCHOOL	ROOM	INSTRUCTOR
Monday, January 5, 2009	9:00-10:20	Writing 1 (A)	SHSS	304	Shafag Babayeva *(Gunel M, Khayala I)*
		Writing 1 (D)	SHSS	515	Milana Abbasova *(Shafag B, Sevda I)*
		Writing 1 (E)	SHSS	314	Arzu Quliyeva *(Milana A, Gulnar A)*
		Writing 1 (B)	Engineering	412	Gunel Mammadova *(Tarana B, Aysel Azimova)*
	10:30-11:50	Writing 1 (B)	SHSS	313	Shafag Babayeva *(Milana A, Aysel Aslanova)*
		Writing 1 (C)	SHSS	410	Milana Abbasova *(Aygun M, Hamiya B.)*
		Writing 1 (F)	SHSS	412	Arzu Guliyeva *(Gunel M, Aysel Azimova)*
		Writing 1 (G)	SHSS	307	Aygun Mammadova *(Gulnar A, Sabina K)*
		Writing 1 (A)	Engineering	411	Gunel Mammadova *(Tarana B, Shafag B)*
		Writing 1	Education	304	Hamiya Bakhishova *(Khayala I)*
	12:10-13:30	ESL pre –adv (A,B)	SHSS	304	Lydia Gamidova *(Gunel M, Afag G)*
		Gram adv (A, B)	SHSS	314	Gunel Mammadova *(Aysel A, Khayala I)*
		Reading 2	Engineering	415	Sevda Ismayilova *(Gulnar A, Shafag B)*
	13:40-15:00	Gram pre adv (D)	SHSS	313	Narmina Kazimova *(Nushaba M, Afag G.)*
		Gram pre adv (C)	SHSS	412	Nushaba Mammadova *(Narmina K, Gunel M)*
Wednesday, January 7, 2009	9:00-10:20	Reading 1 (F)	SHSS	304	Tarana Boyukzade *(Gulnar A,* Sevda Ismayilova)
		Reading (G)	SHSS	307	Aysel Aslanaova *(Kamala S, Gunel M)*
		Reading 1 (D)	SHSS	515	Sabina Kerimova *(Tarana B, Shafag B)*
		Reading 1	Education	309	Kamala Seyfiyeva *(Aysel A, Hamiya B)*
	10:30-11:50	Reading 1 (A)	SHSS	304	Firangiz Nassirova *(Gulnar A, Sevda I)*
		Reading 1 (E)	SHSS	314	Tarana Boyukzade *(Milana A, Aygun M)*
		Reading 1 (A)	Engineering	412	Gulnar Aghayeva *(Tarana B, Shafag B)*
		Reading 1 (B)	Engineering	411	Gulnar Aghayeva *(Sabina K, Khayala I)*
	12:10-13:30	Reading 1 (B)	SHSS	304	Firangiz Nassirova *(Sabina K, Kamala S)*
		Reading 1 (C)	SHSS	515	Sabina Kerimova *(Shafag B,Aysel Azimova)*
		Writing 2	Education	411	Kamala Seyfiyeva *(Khayala I, Milana A)*
		Gram pre adv (A, B)	SHSS	314	Ravana Taghiyeva *(Afag G)*
	13:40-15:00	ESL pre adv (E)	SHSS	412	Narmina Kazimova *(Nushaba M, Aysel A)*
		ESL pre –adv (D)	SHSS	504	Aysel Aslanova *(Narmina K, Afag G)*
Friday, January 9, 2009	9:00-10:20	Writing 2 (A)	SHSS	412	Khayala Isayeva *(Sevda I, Gulnar A)*
		Writing 2 (B)	Engineering	411	Sevda Ismayilova *(Milana A, Tarana B)*
		Writing 2 (B)	SHSS	303	Shafag Babayeva *(Gulnar A, Khayala I)*
		ESP (A)	Engineering	414	Ravana Taghiyeva *(Shafag B,)*
	10:30-11:50	Reading 2 (A)	SHSS	507	Gulnar Aghayeva (*Sevda I,Aysel Azimova*)
		Reading 2 (C)	SHSS	313	Aysel Aslanova *(Tarana B, Hamiya B)*
		Writing 2 (A)	Engineering	415	Milana Abbasova *(Shafag B ,Khayala I)*
		Reading 2	Education	304	Sevda Ismayilova *(Gunel M, Milana A)*
		ESP (B)	Engineering	414	Ravana Taghiyeva *(Sabina K, Afag G)*
		ESL pre –adv (C)	SHSS	507	Gulhayat Abdullayeva *(Aysel A, Gulnar A)*
	12:10-13:30	Reading 2 (B)	SHSS	314	Aysel Aslanova *(Khayala I, Aygun M)*
		Reading 2 (D)	SHSS	504	Khayala Isayeva *(Sevda I, Aysel Aslanova)*
	13:40-15:00	ESP	SHSS	515	Nushaba Mammadova *(Narmina K)*

School of Architecture, Engineering and Applied Science

Date	*Time*	*Subject*	*Instructor*	*Room №*
08.01.09	10:30	Multimedia Systems	Sakhavat Talibov	417
10.01.09	15:10	Network Programming	Sakhavat Talibov	417
11.01.09	10:30	Petroleum Reservoir Engineering	Rafig Gurbanov	304,314
13.01.09	10:30	Signals and Systems	Rafig Ahmadov	414
14.01.09	12:10	Azerbaijan Language (F)	Konul Quliyeva	314
15.01.09	12:10	History of Civilization	Roza Arazova	304,314
15.01.09	13:40	Geology	Gasham Zeynalov	504
17.01.09	13:40	Soft Computing	Leyla Muradkhanli	416
17.01.09	15:10	Physics 1	Hikmat Hasanov	504
18.01.09	10:30	Well Logging	Elchin Shirinov	304,314
19.01.09	9:00	Computer Application in Business (A)	Etibar Rzazada	416
19.01.09	10:30	C-programming	Aygun Alasgarova	414
19.01.09	12:10	Introduction to CS (A)	Etibar Rzazada	416
19.01.09	13:40	Introduction to CS (F)	Etibar Rzazada	416
21.01.09	09:00	Computer Application in Business (F)	Etibar Rzazada	416
21.01.09	10:30	Applied Statistics Analysis	Nigar Aslanova	304
21.01.09	12:10	Introduction to CS (B)	Etibar Rzazada	416
22.01.09	10:30	Strength of Materials	Arif Mammadzada	314
22.01.09	12:10	Calculus 1	Nigar Aslanova	504
22.01.09	13:40	Introduction to CS (C)	Etibar Rzazada	416
23.01.09	10:30	Azerbaijan Language (az)	Reyhan Madatova	304
23.01.09	12:10	Azerbaijan Language (rus) (B)	Reyhan Madatova	504
24.01.09	12:10	Constitutional Law	Leyla Mammadova	504
24.01.09	15:10	Microeconomics	Rafig Gurbanov	504,507
26.01.09	12:10	Life Science (F)	Murad Tağıyev	304
26.01.09	13:40	Life Science (A)	Khuraman Aliyeva	304
26.01.09	16:40	Chemistry 1	Ziyafaddin Asadov	504
27.01.09	13:40	Azerbaijan Language (rus) (A)	Reyhan Madatova	504
28.01.09	12:10	Computer Architecture	Ramiz Ahmadov	414
28.01.09	15:10	Thermodynamics	Hikmat Hasanov	304
30.01.09	12:10	History of Religions	Ulkar Abuzarova	504

School of Economics and Management

Subject	Instructor	Date and time
FIRST YEAR		
Writing 1 (A)	Kamala Mahmudova	January 7 13:40
Writing 1 (B)	Afat Alakbarova	January 7 12:10
Writing 1 (C)	Kamala Mahmudova	January 7 10:30
Writing 1 (D)	Saadat Farhadova	January 7 10:30
Reading 1(A)	Kamala Mahmudova	January 9 10:30
Reading 1(B)	Afat Alakbarova	January 9 12:10
Reading 1(C)	Afat Alakbarova	January 9 10:30
Reading 1(D)	Saadat Farhadova	January 9 12:10
Introduction to Business A,B	Fuat Rasulov	January 12 12:10
Introduction to Business C,D	Fuat Rasulov	January 12 9:00
Introduction to C.S. (A)	Fuad Afandiyev	January 14 9:00
Introduction to C.S. (D)	Fuad Afandiyev	January 14 12:10
Introduction to C.S. (B)	Fuad Afandiyev	January 16 9:00
Introduction to C.S. (C)	Fuad Afandiyev	January 16 12:10
Azerbaijan Language 2	Durdana Rahimzade	January 20 10:30
Azerbaijan Language 1	Durdana Rahimzade	January 22 12:10
Azerbaijan Language 3	Durdana Rahimzade	January 22 9:00
SECOND YEAR		
ESP 1	Syed Ali Mahammad	January 5 12:00
ESP 2	Syed Ali Mahammad	January 5 12:00
Writing 2 (A)	Saadat Farhadova	January 7 9:00
Writing 2 (B)	Saadat Farhadova	January 7 10:30
Business Law	Altay Mustafayev	January 8 18:30
Reading 2	Syed Ali Mahammad	January 9 9:00
French 1	Faramaz Bagirov	January 13 9:00
French 2	Faramaz Bagirov	January 13 10:30
Social Psychology	Ulkar Isayeva	January 14 13:40
Philosophy 2	Agalar Mammadov	January 14 16:40
Philosophy 1	Agalar Mammadov	January 16 16:40
Family Law	Akif Alizade	January 17 9:00
Classic Music	Yegana Akhundova	January 17 9:30
Life Scinece (3)	Aqil Aliyev	January 19 16:40
Life Scinece (1)	Aqil Aliyev	January 21 16:40
Life Scinece (2)	Aqil Aliyev	January 23 16:40
Computer App. 2	Etibar Rzazade	January 23 12:10
Introduction to C.S.	Etibar Rzazade	January 23 15:10
Computer App. 1	Fuad Afandiyev	January 27 12:10
THIRD YEAR		
Microeconomics 2	Rovshan Guliyev	January 6 18:30
Japan lang.	Jamila Bakikhanova	January 12 16:40

Microeconomics 1	Elvin Afandi	January 13	18:30
Financial Accounting	Elmar Rahimov	January 17	12:10
Servives Marketing	Aygul Isayeva	January 19	18:30
Information Technology	Vagif Salimov	January 17	15:10
Marketing	Murad Tahirov	January 12	18:30
Mathematics for Economics	Rovshan Guliyev	January 26	9:00
Business Statistics	Rovshan Guliyev	January 19	15:10
Macroeconomics	Rovshan Guliyev	January 15	18:30
FORTH YEAR			
Managerial Accounting	Asif Mahmudov	January 9	18:30
Pricing Strategy	Elman Feyziyev	January 9	18:30
Financial Management 2	Mahmud Jafarov	January 10	9:00
Management 1	Khumar Huseynova	January 13	9:00
Management 2	Khumar Huseynova	January 15	9:00
Operations Management	Khumar Huseynova	January 17	12:10
Financial Management	Kamran Madjidov	January 18	12:00
Enviroment Management	Rovshan Abbasov	January 27	15:10
International Business	Anvar Huseynov	January 31	18:30
MBA			
Organizational Bahavior	Elchin Rashidov	January 7	18:30
Operations Management	Ramin Alakbarov	January 10	12:10
International Finance	Nigar Ismayilova	January 16	18:30
Information Technology	Vagif Salimov	January 17	18:30
Marketing Policy	Syed Ali Mahammad	January 19	18:30
Energy Management	Ingilab Ahmadov	January 22	18:30
Applied Business Statistics	Gursel Aliyev	January 24	10:30
International Accounting	Alakbar Akbarov	January 31	18:30
Managerial Economics	Rovshan Guliyev	January 23	18:30

School of Humanities and Social Sciences

DATE	TIME	SUBJECT	INSTRUCTOR	#
06.01.09	10.00	Modern Azerbaijani Language-1	Elza Ismayilova	314
		Fundamentals of Linguistics	Reyhan Madatova	314
	12.10	Fundamentals of TV and Radio	Asmar Zulfugarova	314
		French-2	Faramaz Bagirov	304
	15.10	French-1	Faramaz Bagirov	504
		Sociology of Education	Khumar Hasanova	304
07.01.09	10.30	Philosophy of Education	Khumar Hasanova	504
	12.10	Life Science	Agil Aliyev	504
08.01.09	10.00	Arabic-1(A,B)	Ulkar Abuzarova	304
		Persian-1 (A,B)	Zivar Huseynova	314,504
	11.30	Azerbaijani Language-1(D)	Elza Ismayilova	304

		Azerbaijani Language-1 (C)	Konul Guliyeva	504
	15.10	History of Journalism/Phonology	Knyaz Aslan/Reyhan Madatova	314
09.01.09	13.40	History of Azerb. History (A)	Roza Arazova	304,504
	15.10	Advanced English Vocabulary	Lidiya Hamidova	314
		Contemporary Philosophy	Mail Yagubov	504
10.01.09	10.00	Family Law	Akif Mammadov	504,314
	13.40	Islamic Thought	Elnura Azizova	304
		History of Azerb.Literature-2/5	Knyaz Aslan/Dilbar Zeynalova	504
		Introduction to CS(B) (political Sc)	Konul Ahmadova	416
12.01.09	10.00	News Writing	Vusal Mammadov	304
		Persian-5(A,B)	Natig Zulfugarov	504
	11.40	Philosophy	Aghalar Mammadov	504
	13.40	Azerbaijani History (polyt)	Roza Arazova	504,304
13.01.09	10.00	Constitutional Law	Abil Bayramov	304
		Azerbaijan language-1(E)	Elza Ismayilova	314
	12.00	World Literature in English	Khayala Mammadova	504, 314
	13.40	NATO and Security Studies	Mukhtar Mammadov	504,314
14.01.09	10.00	Azerbaijan language-1(B)	Elza Ismayilova	314
		Translation practice-3	Firdovsi Karimov	304, 313
	11.30	Genres of Journalism	Knyaz Aslan	504
		Logics	Elmar Huseynov	314
	15.10	History of Political Theories	Kanan Allahverdiyev	504,507
15.01.09	10.00	Azerbaijan Literature-2(A,B)	Dilbar Zeynalova	314,304
		Mugham	Arif Babayev	504
	11.40	Family and Marriage	Murad Tagiyev	507
		Photo Journalism	Farid Gadirov	504
	13.40	Azerbaijan language-1(G)	Elza Ismayilova.	314
16.01.09	9.00-11.50	Introduction to CS(failed)	Nuru Safarov	416
	12.10	Introduction to CS(C) pol	Nuru Safarov	416
	10.00	Sociolinguistics (both groups)	Jala Garibova	304,504,314
	11.40	Research Methods in Political Science(A,B)	Sanan Mirzayev	504,304
	14.00	Law Enforcement Systems	Jabir Khalilov	504
17.01.09	10.00	Azerbaijan Literature-1	Aydinxan Abilov	304,314
	13.40	Introduction to Linguistics	Firdovsi Karimov	507,304
19.01.09	10.00	Modern Azerbaijani Language-2/ World Literature-1	Elza Ismayilova/ Farhad Huseynzada	304
		Radio Journalism	Shahla Sultanova	314
	12.10	History of Azerb. History (C)	Roza Arazova	304
	15.10	Middle East in World Politics	Araz Aslanli	504,515
21.01.09	10.00	Azerbaijan language-1(A)	Elza Ismayilova	314

		Literature of Turkic People	Elza Samadova	504
	11.40	Academic Writing	Nushaba Mammadova	504,507
	14.00	Introduction to Political Science (both groups)	Kanan Allahverdiyev	314,504
		Nation and Nationalism	Manoucher Shiva	507
22.01.09	10.00	Communicative Persian(A,B)	Khuraman Shirinova	304
		Communicative Arabic(A,B)	Elnur Lahijov(A,B)	504
	12.10	Educational Psychology	Eldar Shahgaldiyev	304
	15.10	Theory of International Relations	Ilgar Ibrahimli	314,504
23.01.09	10.00	Introduction to Turkology	Elza Samadova	504
		Stylistics(III-d year)	Irina Orujova	314
	12.10-11.50	History of Azerb.History (D)	Roza Arazova	304,314
	15.10	Foreign Policy of Turkey	Araz Aslanly	504,314
24.01.09	9.00-11.50	Introduction to CS(A)	Konul Ahmadova	416
	10.00	Azerbaijan Literature-2(C)	Aydinxan Abilov	304,314
	15.10	Text Interpretation	Ramila Mammadova	304
		Literary Studies	Rena Musayeva	504
26.01.09	10.00	Communicative English(A,B)	Khayala Mammadova	314
		Philosophy of Religion	Ulkar Abuzarova	504
	11.40	Modern Diplomacy	Baba Bayramli	504
	15.10	Psychopathology (A,B)	Ulkar Isayeva	314,504
27.01.09	10.00	British Literature-2	Rena Musayeva	304
	11.40	Creative Writing (A,B)	Khanim Mammadova	314
		Arabic-5(A,B)	Tarana Akbarova	304,504
28.01.09	10.00	Persian-3(A,B)	N.Zulfugarov/Z.Huseynova	504,315
	11.40	Folkore	Bahlul Abdulla	504
		Italian-1	Kamala Mammadova	304
	14.00	Political and Economic Geography of World	Araz Aslanli	314, 504
29.01.09	10.00	Earth and Space Science	Hikmat Hasanov	304
		Sufizm	Mehmet Rihtim	314,504
30.01.09	10.00	Theory of Translation	Irina Orujova	504
		American Studies	Khayala Mammadova	304
	11.40	Introduction to Economics	Sanan Mirzayev	504,314
31.01.09	10.00	Arabic-3(A,B)/Arabic-2	K.Hasanova/ T.Akbarova/ E.Lahijov	314,304
	11.40	Foundations of Security Studies	Rashad Huseynov	504
02.02.09	10.00	Stylistics (IV-th year)	Irina Orujova	314,504

School of Law

Subject	Date	Time	Instructor	Room #
International Humanitarian Law	01.07.2009	15:00	Saadat Novruzova	504
Banking Law	01.08.2009	14:00	Altay Mustafayev	504/507
Family Law (SHSS)	01.10.2009	10:00	Akif Alizade	504/314
Islamic Thought	01.10.2009	15:00	Elnura Azizova	504
Constitutional Law (SHSS)	13/1/2009	10:00	Abil Bayramov	304
History of Islam	13/1/2009	15:00	Elnura Azizova	504/507
Civil Law	15/1/2009	15:00	Akif Alizade	504
Administrative Law	16/1/2009	12:00	Leyla Mammadova	507
Law Enforcement Systems	16/1/2009	14:00	Jabir Khalilov	504
Family Law (Economics)	17/1/2009	9:00	Akif Alizade	Downtown Campus
Labor Law	19/1/2008	12:00	Sariyya Hajiyeva	504/507
Criminal Law	21/1/2009	14:00	Jabir Guliyev	507
Crimes against Personality	23/1/2009	13:30	Jabir Guliyev	504/507
Aerospace Law	24/1/2009	10:00	Fuad Guliyev	504
Constitutional Law (Engineering)	24/1/2009	12:00	Leyla Mammadova	504
Theory of State and Law	26/1/2009	13:30	Leyla Mammadova	504/507
General and Personal Hygiene	29/1/2009	12:00	Khuraman Aliyeva	504

School of Medicine, Dentistry and Public Health

Date	Time	Subject	Instructor	Rooms
05.01.09	15.10	Emergency medicine	Rajamohan Duraiarasan	307
08.01.09	13.40	Radiodiagnostics	Jamal	314,304
	15.10	Medical genetics-1 Medical genetics-2	Tarana Gadirova	304
10.01.09	12.10	Internal diseases-5	Rena Kerimova	314,304
		Internal diseases-2 Introduction to internal diseases[azeri]	Natavan Faradjeva	
	13.40	Introduction to internal diseases[rus] Introduction to internal diseases[international group]	Rena Kerimova	314
	15.10	Pathophysiology[international group]	Elchin Zeynalov	314
12.01.09	13.40	Pathophysiology[group b] Pathophysiology[rus]	Khuraman Aliyeva	314
13.01.09	15.10	Introduction to nursing	Rajamohan Duraiarasan	304,314
14.01.09	13.40	Pathophysiology[group a] Pathophysiology[stom]	Khuraman Aliyeva	304,314
		Physiology-1,2	Agil Aliyeva	
15.01.09	15.10	Surgery-5	Nadir Zeynalov	307
16.01.09	13.40	Topographical anatomy[azeri] Topographical anatomy[rus]	Elchin Akberov	304,314
	15.10	Oral oncology	Anar Abdullayev	314
17.01.09	10.00	Child diseases	Svetlana Chernausheva	216

	12.10	Pharmacology[group b] Pharmacology[rus]	Sabuhi Abilov Fatima Huseynova	304,314
	13.40	Pharmacology[group a] Pharmacology[stom]	Sabuhi Abilov Fatima Huseynova	307,314
19.01.09	15.10	Family law	Leyla Mamedova	304,314
20.01.09	12.10	Azerbaijan history	Gunel Rahmanzade	304
	13.40	Immunology[group b] Immunology[rus]	Khuraman Aliyeva	304,314
21.01.09	12.10	Clinical biochemistry-1 Clinical biochemistry-2 Medical chemistry	Gulnara Azizova	314
22.01.09	12.10	Azerbaijan language	Konul Guliyeva	314,307
		Functional diagnostics	Rena Kerimova	
	13.40	Immunology[group a] Immunology[stom]	Khuraman Aliyeva	314,304
	15.10	Surgery-1 Introduction to surgery	Rauf Shahbazov Nadir Zeynalov	304,313
24.01.09	13.40	Epidemiology	Madar Talibov	314,304
26.01.09	13.40	Anatomy-2	Elchin Akberov	
		Japanese	Jamila Bakikhanova	314,304
27.01.09	13.40	Medical expertise[azeri] Medical expertise[rus]	Tahir Hajili	314,304
	15.10	Topographical anatomy[international group]	Elchin Akberov	314,307
29.01.09	13.40	Dermatology	Ilham Akberov	314
30.01.09	15.10	Histology-2 [international group]	Samira Kelenterli	314,307
		Oral pathology	Anar Abdullayev	

School of Education

DATE	TIME	SUBJECT	INSTRUCTOR	ROOM
25/12/08	15:10-16:30	Painting	Pervin Guliyeva	411
27/12/08	12:10-13:30	Jewellery	Eduard m.	310
05/01/09	10:30-11:50	Writing 1	Hamiya Bakhishova	304
07/01/09	12:10-13:30	Writing 2	Kamala Seyfiyeva	411
07/01/09	9:00-10:20	Reading 1	Kamala Seyfiyeva	309
09/01/09	12:10-13:30	Reading 2	Sevda Ismayilova	304
08/01/09	12:10-13:30	Elementary Mathematics education	Asiph Nebiyev	314
09/01/09	12:10-13:30	Dephectology	Gulchin Mehraliyeva	314
12/01/09	15:10-16:30	World regional geography	Shamil Azizov	304
14/01/09	15:10-16:30	Elementary Health & physical education	Gulchin Mehraliyeva	314
15/01/09	12:10-13:30	Mathematics for elementary teachers-I	Asiph Nebiyev	314
17/01/09	12:10-13:30	Drama in The Classroom	Ceyhun Dadashov	410
19/01/09	15:10-16:30	Elementary Art Education	Pervin Guliyeva	304
21/01/09	15:10-16:30	Azerbaijan Language	Reyhan Madatova	314
22/01/09	9:00-10:20	İntroduction to Computer science	Fizuli Mammadov	416
24/01/09	9:00-10:20	Italian language	Kamala Aliyeva	410
26/01/09	15:10-16:30	Intr.psyco.child.develepment	Elmira Mirzayeva	304



BUĞA

Hamıdan fərqli olaraq siz 2009-cu ilin gəlişindən daha çox şeylər gözləyirsiniz. Çünki ötən il kifayət qədər çətinliklə rastlaşmısınız. Ələlxüsus da dost və doğmalarınızla aranızda ciddi soyuqluq, fəaliyyət sahəsində yaranmış problemlər, şəxsi büdcənizi tənzimləmək üçün etdiyiniz cəhdlərin tez-tez boşa çıxması Siçovul ilinə olan etimadınızı azaldıb. Buna baxmayaraq, yeni ilin elə ilk həftələrində qarşınıza çıxan şanslardan yararlanmalısınız. Hər şeydən əvvəl, köhnə planları, nə vaxtdan bəri daxilinizdə cövlan edən layihələri reallaşdırmağa çalışın. Əgər martın ortalarına qədər bu istiqamətdə məqsədinizə yetişsəniz, ilin qalan 9 ayını şad və xürrəm tərzdə başa vuracaqsınız.

Aprel ayının sonlarında rastlaşdığınız adamların şəxsi həyatınızda olduqca böyük rolu olacaq. Bunun üçün ilk növbədə təşəbbüskarlıq öz tərəfinizdən olmalıdır. Bir sözlə, müttəfiqlərinizə səmimiyyətinizi göstərə bilsəniz, onlar karyerada yüksəlişinizə və maliyyə uğurlarınıza təminatçı olacaqlar. Yeganə çətinliyiniz avqustda olacaq. Yaxşı olar ki, göstərilən müddətdə əsas diqqətinizi səfərlərə və istirahətə yönəldəsiniz. Payızda isə böyük sınaqlarla baş-başa qalacaqsınız. Yenə də hər şey özünüzdən, çıxardığınız qərarlardan, gəldiyiniz nəticələrdən asılı olacaq. Həyatın aparıcı amili olan sevgi məsələsində isə vəziyyət qənaətbəxş olmalıdır.




ƏKİZLƏR

2009-cu ilin ilk 6 ayı ərzində insanlara münasibətinizdə, eləcə də dünyagörüşünüzdə mənfi fəsadlar nəzərə çarpacaq. Amma çətin olsa da, qarşınızda duran məqsədlərə yetişə biləcəksiniz. Axı siz, tərəddüdlərinizə baxmayaraq, sonda hədəfə çatırsınız. Ulduzların düzümü Novruz bayramından may ayının ilk həftəsinə qədər olan müddətdə daha ehtiyatlı olmağınızı məsləhət görür. Deyilən ərəfədə rəqiblərinizə kifayət qədər güclənəcək və məğlubiyyətinizə nail olmaq üçün canfəşanlıq göstərəcəklər. Gərəkdir ki, yeni və ciddi işlərdən uzaq olasınız.

Öküz ili bürcünüzə zamanla ayaqlaşmağı, etikanı qorumağı və daha çox təcrübi işlərlə məşğul olmağı təlqin edəcək. Əgər bu ənənəyə sadiq qalmasanız, iyunun sonuna qədər çətinliklə baş-başa qalacaqsınız. İş barədə özünüzü aldatmağa, boş-boşuna vaxt itirməyə son qoymalısınız. Əgər hər şeydən əliniz üzülsə, yalnız məhəbbətdən yapışın. Çünki bu il başlıca xilas amiliniz məhz sevgi olacaq. İlin birinci yarısında maliyyə durumunuz aşağı səviyyədə olsa da, payıza doğru müsbət dönüş əldə edəcəksiniz. Ümumiyyətlə, sentyabrın sonlarından başlayaraq tale üzünüzə güləcək.

XƏRÇƏNG



Astroloji göstəricilərdən hiss olunur ki, ötən il bir neçə mühüm işə başlasanız da, onların əksəriyyəti yarımçıq qalıb. Bu baxımdan qarşılamaqda olduğunuz 2009-cu il sizin üçün çox məhsuldar dövr olacaq. Yanvar-mart aralığında bəzi cəhdləriniz boşa çıxsa belə, yeni müttəfiqlər qazanmağınızdan razı qalacaqsınız. Məhz göstərilən üç ayda karyeraya yüksələn "kəsə yolu" tapacaqsınız.

Aprelin ortalarından etibarən şəxsi büdcənizi tənzimləməkdə heç bir maneə ilə rastlaşmayacaqsınız. Göstərdiyimiz zaman kəsiyində böyük biznesə girişmək, perspektivli maliyyə sövdələşmələrinə başlamaq üçün neçə-neçə şans qazanacaqsınız. Yaz aylarında ailə-sevgi münasibətləriniz mənfi müstəviyə istiqamət götürə bilər. Ola bilsin ki, bəzi bədxahlar sevdiyiniz şəxslə aranızda soyuqluq yaratmaq istəyəcəklər. Dedi-qoduya aludə olmayın. Əgər tövsiyələrimizə əməl etsəniz, qızmar yayda vəziyyətiniz qaydasına düşəcək. Sentyabrın ortalarından başlayaraq istər karyerada, istərsə də biznes fəaliyyətində uğurlarınız artacaq.

Noyabrda sağlamlığınızı qoruyun. Həmin zaman kəsiyində spirtli içkilərdən, soyuq qidalardan uzaq olmalısınız. İlin son ayını isə ürəyiniz istəyən tərzdə keçirəcəksiniz.

SEVGİ POEZİYAMIZA SEVGİ...

"Azərbaycan sevgi poeziyası" çoxcildliyinin birinci kitabı haqqında

Deyilənə görə, Tanrı Dünyanı yaratdı. Dağıyla, dərəsiylə, ucsuz-bucaqsız düzənlikləriylə. Çayıyla, gölüylə, dənizləriylə. Zümrüd meşələriylə, gömgöy çəmənlikləriylə. Amma bu Dünyanı sükut, səssizlik üzürdü, darıxdırırdı. Tanrı bunu belə görüb Adəmi xəlq elədi. Nə fayda... Tək-tənha dolaşan Adəm dünyanın varlığını, bu varlığın bitib-tükənməyən gözəlliyini görə, duya bilmədi. Adəmi təklikdən, tənhalıqdan qurtarmaq üçün Tanrı bu səfər Həvvanı xəlq elədi. Onları üz-üzə, qarşı-qarşıya yönəltdi. Amma nə Adəm Həvvaya, nə də Həvva Adəmə baxdı. Birbirlərini görmürmüş kimi ayrı-ayrı səmtlərə yollandılar. Bəs məsələnin belə çilləyə minməsinə səbəb nə idi? Səbəbin kökü dərin idi. Adəmin də, Həvvanın da köksündə döyünən ürəyin döyüntüsü, çırpıntısı soyuq idi. Çatışmayan nəydi? *Sevgi!* Bəli, bəli, yalnız sevgi! Tanrı Adəmin də, Həvvanın da qəlbinə öz nurundan pay ata etdi. Sevgi nuruydu bu nur. Bu sevgi nuru Adəmlə Həvvanı bir-birinə qovuşdurdu. Bu sevgi nuru onların gözlərində Dünyanı, Aləmi gözəlləşdirdi, varlığı onlara sevdirdi. Adəmlə Həvvanın qəlbinə dolan bu sevgi nuru zaman-zaman bütün insanların qəlbinə axdı. Burada əbədilik qərarlaşdı. Böyüdü, şaxələndi. Valideyn - övlad sevgisinə çevrildi. Torpaq, Vətən, yurd sevgisi oldu. Oğlan - qız sevgisi bu sevgidən qaynaqlandı, pöhrələndi. Bu sevgi insanın ruhuna hopdu. Ona ilham bəxş elədi. Qurmaq, yaratmaq ilhamı, zövq sevgisi verdi. Bu ilham, bu sevgi insan ruhunu şeir, poeziya ümmanına da qanadlandırdı.

Sevgiyə öz dilimizdə olmayan, amma dilimizə yatımlı olan məhəbbət də, eşq də deyildi. Bütövlükdə varlıq, yer, göy – makro, mikro kosmos bu sevginin, bu məhəbbətin, bu eşqin içində durula-durula duyuldu, dərk edildi. «Eşqdir məhvəri uca göylərin//Eşqsiz, ey dünya, nədir dəyərin?» – deyə, cavabı içində olan bədii sual ortaya çıxdı; yaxud «Eşqdir, yalnız məhəbbətdir həyatın cövhəri» deyildi. Nəinki böyük, hətta ortabab yazarlar da yazdıqlarının poetik axarını bu sevgiylə süsləndirdilər, elə indi də bu qayəni uca tuturlar. Qüdrətli sənətkarlarımız Tanrı sevgisiylə sevgi taxt-tacının əbədi sakinləri olan Məcnunla Leyliyə əbədiyaşarlıq bəxş etdilər. Məcnunla Leylinin yandırdıqları sevgi şamının çevrəsinə Kərəmlə Əsli, Abbasla Gülgəz, Qəriblə Şahsənəm, Tahirlə Zöhrə kimi sevgi pərvanələri hələləndilər. Bu sevgi şamı heç vaxt sönməyəcək. Sevgi pərvanələri bu şamın odunda səmandər quşu kimi alovlanacaq, yanacaq və yenə bu oddakı, alovdakı sevgi qığılcımından can alıb canlanacaq, yaşadıqca yaşayacaq.

Nə bilmək olar, bəlkə elə belə-belə hisslər, duyğulardır universal şəxsiyyət olan alim-şair Hamlet İsaxanlını Azərbaycan şairlərinin, özü demişkən, «yaxşı sevgi şeirləri»ndən ibarət «sevgi çələngi» hörməyə, oxucuya «sevgi şeir divanı» ərməğan etməyə səsləyən?

Əlbəttə, biz Hamlet İsaxanlı barədə «universal şəxsiyyət» deyəndə elə zənn olunmasın ki, özümüzdən bir yenilik icad etmişik, yaxud, sözün gerçək anlamında, ensiklopedik zəka olan bu fenomen insan haqqında öyüm demək niyyətində olmuşuq. H.İsaxanlının böyük riyaziyyatçı alim olmasını, riyaziyyatda funksional analizlər üzrə tanınmış ixtiraçı mütəxəssisliyini, çoxparametrli spektral nəzəriyyə sahəsindəki nailiyyətlərini dünyanın sayılan alimləri – B.M.Levitan, V.B.Lidski, P.C.Braun, F.V.Atkinson, S.M.Nikolski, V.Q.Vladimirov, A.A.Dezin və başqaları

çox obyektiv olaraq yüksək dəyərləndirmişlər.

H.İsaxanlının təhsil qurucusu olmasından, əzmkar təşkilatçılığından, hələ sovet dönəmində, sovet quruluşu zamanında ilk özəl Xəzər Universitəsi yaradıb, onu dünya universitetlərinin öncülləri sırasına çıxarmasından söz açan mütəxəssislərin, siyasi xadimlərin dedikləri, Xəzər Universitəsi «...müstəqil təhsil sisteminin önündə gedən bir bayraqdardır» sözləri, düşünürəm ki, Hamlet müəllimi tanıyan hər bir kəsin qəlbini qürur, fərəh hissi ilə doldurur.

Az-çox ədəbiyyat adamı olduğumdan istədim ki, H.İsaxanlının bədii yaradıcılığından danışım. «Təzadlar», «Bu da bir həyatdı», «Dördlüklər» kitablarından və qəzet-jurnallardan sevə-sevə oxuduğum poetik tutumlu şeirlərə hopan şairin qəlb duyğularından, fəlsəfi düşüncələrindən, sevgi hisslərindən, doğma təbiətimizə vurğunluğundan, el-obaya bağlılığından söz açım. Nə edim ki, burada da yubandım. İdeal insan bildiyim filosof – ədəbiyyatşünas C.Mustafayev, xalq şairlərimiz N.Həsənzadə, Z.Yaqub, tələbə dostum, xalq yazıçısı M.Süleymanlı, yazıçı V.Babanlı və başqaları məni qabaqladı. Bu görkəmli sənətkarların Hamlet müəllimin ləyaqətli poeziyası barədə dediklərini təqdir etməkdən başqa çarəm qalmadı və üz tutdum onun sevgiylə tərtib etdiyi «Azərbaycan sevgi poeziyası»na sarı.

H.İsaxanlının çoxcildlik olaraq nəzərdə tutduğu «Azərbaycan sevgi poeziyası»nın birinci kitabı (Xəzər Universitəsi Nəşriyyatı, 2008) tərtibçinin «Yaxşı sevgi şeirlərimiz...» başlıqlı ön sözü ilə başlayır. Sözün düzü, başlıqdakı «şeirlərimiz»dən sonrakı üç nöqtə məni düşündürdü. Amma elə əlbəəl müəllifin «şairlərimizin ***ən yaxşı*** sevgi şeirlərinin hamısını, ***yaxşı*** sevgi şeirlərinin isə çox böyük qismini kitaba daxil etmək istədim» sözləri dadıma yetişdi. «Ən yaxşı» və «yaxşı». Bəli, zövqlər çoxçeşidlidir. Kimsəyə «ən yaxşı»nı «yaxşı», yaxud «yaxşı»nı «ən yaxşı» olaraq tələqin etmək mümkün deyil. Əks halda, oxucuya aidlikdə, fərdiləşmə – ümumiləşmə anlayışı «qayətdə bietibar» olardı.

Bilavasitə bələdçilik funksiyasını öhdəsinə alan «Yaxşı sevgi şeirlərimiz...»də tərtibçi «Nə üçün sevgi şairlərimiz kitabda M.S.Ordubadidən başlayır?» sualını verən oxucunu da nigaran saxlamır. O deyir ki, 800-1000 səhifəlik bir kitaba Azərbaycan şairlərinin sevgi şeirlərini toplamaq olardı. Amma müasir oxucunu daha çox yığcam həcmli kitablar cəlb eləyir. Belə kitablar gözü yormur, zövqü oxşayır. Tarixilik məsələsində xronologiya prinsipini meyarlaşdıran müəllifin deyilən yönlə bağlı qənaəti belədir: «...eyni dövrdə yaşayan şairlərin müxtəlif cildlərə düşməsi də istisna olunmur. Bu halda, tərtibçi daha çevik olmaq imkanını əldə edir, nümunələrin tələm-tələsik deyil, düşünə-düşünə seçilməsi mümkün olur».

«Azərbaycan sevgi poeziyası» kitabı H.İsaxanlının «Sevgi və Poeziya» adlı olduqca dəyərli müqəddiməsi ilə təchiz olunmuşdur. Müəllifin traktovkasında sevginin fəlsəfi dərki, estetik mahiyyəti bəzən ümumi, çox-çox hallarda isə fərdi müstəvidə deşifrovka olunur. Burada Tanrıya, müqəddəs dinimizə, peyğəmbərlərə, ata-anaya, qardaş-bacıya, dosta, Vətən, millət, dil və mədəniyyətə sevginin səciyyəvi cizgiləri müəllif qənaətinin inandırıcı yekunu ilə şərtlənir. H.İsaxanlının təkidincə «Qız və oğlan, qadın və kişi arasında sevgi iki qəlbin simfoniyasıdır, öz «mən»ini başqasının «mən»i ilə bərabərləşdirib, birləşdirib yeni ahəngə qovuşmaqdır». Çox güclü məntiqdir.

Ümumiyyətlə, H.İsaxanlının kitaba yazdığı bu müqəddimə də elə özü-özlüyündə sevgi haqqında yazılmış bir sevgi simfoniyasıdır. Hər cümlədə yaşayan fikir adamı düşüncələr aləminə çəkib aparır. Dərk üçün, qavramaq üçün çox-çox deyilmişi təkrar-təkrar oxumalı olursan. Bu, oxucunun müəllif mətləbini dərindən anlamaq, çox şey öyrənmək istəyinin təzahürüdür.

H.İsaxanlının poeziyasına az-çox bələd olduğumdan onun yaratdığı poetik örnəklərin çoxunun musiqi qatlı olduğunu, musiqinin bu şeirlərin öz içində yaşadığını da duymuşam və duyuram. Bu üzdən onun «Hicran», «Səni sevdim çox sa-

dəcə», «Lalə», «İnciçiçəyi», «Gözəldir», «Külək və qız», «Tək qalmaq istəyirəm», «Baş açmadım bu dünyadan» və s. şeirlərinə musiqi bəstələnməsini də təbii sayıram. Olsun bu da elə bir səbəbdir ki, H.İsaxanlının «Azərbaycan sevgi poeziyası» üçün seçdiyi poetik örnəklərin də çoxdan-çoxu bəstəkar bəstəsində mahnıya, nəğməyə çevrilmiş nümunələrdir. Kitaba daxil edilmiş görkəmli on Azərbaycan şairinin təqribən 200-ə yaxın sevgi şeirinin bir hissəsi belədir. Bu poetik örnəkləri oxuduqca, sanki onlara bəstələnmiş musiqini eşidirsən. Qulağına dahi Bülbülün, Xan Şuşinskinin, Şövkət xanımın, Rəşid Behbudovun, Sara xanımın, Rübabə xanımın, Əbülfət Əliyevin, Gülağa Məmmədovun, Zeynəb xanımın, daha kimin, daha kimin səsi gəlir. Sözlər mahnı, nəğmə təqdimatında bu korifeylərin səsiylə canına yayılır, ruhunu oxşayır. Bu məqamda özünü, çəkdiyi zəhmətə görə, Hamlet İsaxanlıya «sağ ol!» deməkdən saxlaya bilmirsən. Halal olsun! – söyləyirsən.

Ozanlıq mərhələsindən qopub aşıqlıq yoluna üz tutan sənətin böyük ustadı şair-aşıq Qurbani bir səfərində kərpickəsən kişiylə qarşılaşır. Görür ki, bu kişi kərpic kəsə-kəsə həm də onun sözlərini oxuyur. Gəl ki, sözləri elə kökə salır, nə oxuduğu anlaşılmır. Qurbani bir söz deməyib, kişinin təzəcə kəsdiyi kərpiclərin bir neçəsini əzişdirir, əyri-üyrü kökə salır. Kərpickəsən deyir: – Ay oğul, mən əzab-əziyyətlə o kərpicləri kəsmişəm. Sən nə üçün onları tapdayıb əzişdirirsən?

Qurbani deyir: – Əmican, deyəsən, acığın tutdu. Bəs sən nə üçün mənim sözlərimin baş-ayağını kəsib kələ-kötür oxuyursan? Axı, onlar da mənim zəhmətimdi. Mən də əzab-əziyyət çəkib onları düzəltmişəm.

Bu söyləmə-rəvayəti misal gətirməyimiz səbəbsiz deyil. Şükür Tanrının kərəminə! Bir vaxt var idi ki, şeir yazanların çoxluğundan gileygüzar əsirgənmirdi. İndi isə, səsi oldu-olmadı, kimdi fikir verən... Oxuyanların sayı o qədər çoxalıb ki, heç hesaba alınası deyil. Və bunlar müraciət etdikləri mahnıların sözlərini necə gəldi eləcə, öz istədikləri kimi, yaxud da özləri kimi oxuyanlardan eşidib öyrəndikləri kimi avazlayırlar. Bunun bir günahı da mahnı mətnlərinin məsuliyyətsiz nəşri ilə bağlıdır. Çünki bir nəşrdə səhv, təhrifə uğramış mətn – şeir sonrakı nəşrlərdə də elə beləcə təkrar-təkrar çap olunur.

H.İsaxanlı isə «Azərbaycan sevgi poeziyası»na daxil etdiyi örnəkləri ilk qaynaqdan – müəllifin öz əsərindən seçməklə orijinala sadiqliyi nümayiş etdirir. Bu üzdən də, düşünürəm ki, Hamlet müəllimin gördüyü iş daha dəyərli, nəcib bir işdir. Oxuyanların əl-əl gəzdirəcəkləri bu kitab və sonrakı nəşrlər «sevgi poeziyası»na sevgini qat-qat artıracaq.

Hamlet Isaxanlının xarakterindəki, xüsusən iki cəhət həmişə məndə heyranlıq yaradıb: ciddilik və səmimilik. O, bir elm adamı kimi, təşkilatçı kimi çox ciddi və deyərdim ki, bir az da sərt adamdır. Ikiüzlülüyü, yaltaqlığı, saxtalığı xoşlamır. Yalanı heç bağışlamır. Səhv iş gör, amma düzünü danış. Bu başqa məsələ. Çünki düzlük Hamlet müəllimin dəyişməz kredosudur.

Sənətdən, ədəbiyyatdan, insanlıqdan söz düşəndə isə Hamlet müəllim o qədər sadə, səmimi olur ki... Bu məqamlarda onu dinləmək ləzzətli olur, söhbəti, açılan mətləbə vaqifliyi adamı heyran eləyir. Bu heyranlıq məni «Azərbaycan sevgi poeziyası»na Hamlet müəllimin dizayn işi də ağuşuna aldı. Kitabın üz qabığındakı təsvir ötəri bir hissin yox, mənalı baxışın, həssas duyğunun, qəlb ehtizazının görüntüsü olmaqla düşüncəyə hakim kəsilir.

Ümumiyyətlə, bütövlükdə kitabın quruluşu oxucuda müsbət ovqat yaradır. O istəmir ki, bu nəfis nəşrdə balaca çimdik boyda da bir dodaqbüzmə olsun. Amma var. Misal üçün, S.Vurğuna aid bir şeirin ikinci səhifəsinə O. Sarıvəllinin adı gəlib düşüb (səh.111, yuxarıda, xırda hərflərlə). Sözün gerçəyi, belə misilsiz, gözəl nəşrdə istəmirsən ki, lap texniki baxımdan da olsa, nəsə göz oxşamayan hala rast gələsən. Inanıram ki, sonrakı nəşrlər də belə gözəl olacaq. Çünki Hamlet Isaxanlının gördüyü hər bir işə necə qayğı və məsuliyyətlə yanaşdığını tək mən yox, çoxları bilir.

Bəhlul ABDULLA,
professor, əməkdar elm xadimi

ŞİR



Sarı Öküz ili sizin üçün itkilərlə başlayacaq. Ümumiyyətlə, qış aylarını olduqca gərgin tərzdə başa vuracaqsınız. Istər qarşılıqlı münasibətlərdə, istərsə də fəaliyyət zəminində çoxsaylı problemlərlə rastlaşma ehtimalınız var. Odur ki, Novruza qədər riskli hərəkətlərdən uzaq olmalı, ağlınız kəsməyən işlərdən çəkinməlisiniz. Elə ki mülayim yaz başlandı, tale üzünüzə gülməyə başlayacaq. Ötən üç ayda rastlaşdığınız maliyyə problemləri də məhz deyilən ərəfədən yoluna düşməyə başlayacaq. Əgər iştirakçısı olduğunuz situasiyalardan ləyaqətlə çıxa bilsəniz, vəzifə pilləsində ucala da biləcəksiniz. Avqust-oktyabr aralığında isə karyeranızda daha parlaq mənzərə yaranacaq. Həmçinin ailə-sevgi problemləriniz kifayət qədər azalacaq. Bu prosesi daha da sürətləndirmək istəyirsinizsə, davranış və hərəkətlərinizdə ədalətli prinsiplərə söykənməli, kiminsə qəlbini qırmağa çalışmamalısınız.

2009-cu ildə səfərləriniz də çox olacaq. Şəxsi büdcəniz imkan versə, xarici ölkələrə getmək imkanı da qazanacaqsınız. Amma Göy qübbəsi daha çox vətəndə səyahət etməyi məsləhət görür. İlin ikinci yarısında siyasi dünyagörüşünüz nəzərəçarpacaq dərəcədə yüksələcək. Əgər az da olsa siyasətlə məşğulsunuzsa, sizi daha böyük uğurlar gözləyir. Ulduzlar səhhətlə bağlı elə bir ciddi probleminizin olmayacağını vurğulayır.

QIZ



Ötən dövrlərlə müqayisədə 2009-cu ilə reallığın gözü ilə yanaşmalı, hər bir hadisəni dönə-dönə analiz etməlisiniz. Onu da unutmayın ki, bu il dostlarınız xeyli artdığından mühafizəniz də güclənəcək. Bu səbəbdən də nə qədər ciddi olsa belə, rəqiblərdən qorxmamalısınız. Əksinə, əzmkarlığınızı artırmalı, öz ideyalarınıza yetişmək üçün qətiyyət göstərməlisiniz. Belə etsəniz, may ayından başlayaraq fəaliyyətinizdə əsaslı dönüş yaranacaq. Daha əvvəlki dövrlərdəki kimi aldanmayacaq, öz potensialınızı göstərə biləcəksiniz.

Sarı Öküz sizdə mistik inancları da artıracaq. Bu baxımdan İslami qaydalara riayət edəcəyiniz gözlənilir: namaza başlamaq, müqəddəs pirlərimizi ziyarət etmək, digər ayinlərə həvəs göstərmək və s. Yeni ildə üzərinizə düşən başlıca vəzifə səbr nümayiş etdirməkdən ibarətdir. Ulduzlar yazqabağı və payızın ortalarında səhhətinizə diqqət yetirməyinizi tövsiyə edir. Həmişəki kimi laqeydlik göstərsəniz, həkimə düşməyiniz qaçılmaz olacaq. İyunun sonlarından başlayaraq ailə-sevgi münasibətləriniz ideal səviyyəyə çatacaq. Evlənmək üçünsə sentyabr və dekabr aylarını seçməyiniz məsləhətdir.

TƏRƏZİ



Proqnozlarımızın tərtibatında istifadə etdiyimiz bütün mənbələrdə göstərilir ki, martın ortalarına qədər əksər sahələrdə ağır sınaqlarla baş-başa qalacaqsınız. Belə deyək ki, həmin üç ayda sanki "cənnət darvazası" önündə bədxah adamlarla cəngə girəcəksiniz. Odur ki, özünüzdə təpər tapıb rəqiblər üzərində qələbə çalmağa hazır olmalısınız. Qalan məsələlərlə işiniz yoxdur. Ən azı ona görə ki, sonrakı müddətdə Göylər sizi hifz edəcək. Aprelin əvvəllərində tərəfdarlarınız güclənəcək və onlar çox işlərdə sizə dəstək verəcəklər.

Ötən ilin noyabrından rastlaşdığınız problemləri də məhz həmin dövrdən etibarən qaydasına salacaqsınız. Bir amili də unutmayın ki, 2009-cu il evli "Tərəzi"lər üçün çətin, subaylar üçünsə şən keçəcək. Amma ehtiyatlı olmaq lazımdır ki, may-iyun aylarında xəyanətə tuş gəlməyəsiniz. Ümumiyyətlə, yaz ərəfəsində təkcə sevgilinizlə deyil, doğmalarınızla, qohumlarınızla, qonşu və həmkarlarınızla da mülayim davranış nümayiş etdirməli, isti münasibət göstərməlisiniz.

Ulduzlar avqustda uğurlu bir sövdələşmənin iştirakçısı olacağınızı bəyan edir. Hətta bu danışıqların gələcəyinizə parlaq təsir göstərəcəyi də qaçılmazdır. Amma gərək öz problemlərinizə göz yumub başqaları haqqında düşünməyəsiniz. Əvvəl özünüzə əncam çəkin ki, imkanınız olsun və sizi narahat edən şəxslərə də əl tutasınız. Səfər və yeni işlərə gəlincə, bu, yalnız avqust ayında uğurlu ola bilər. Orqanizminizdə cüzi şəkildə mövcud olan qara ciyər, qan dövranı və duzlaşma problemlərini nəzərə almasaq, il boyu səhhətinizdən şikayət etməyəcəksiniz. Bu il sizə təzə mənzil (torpaq sahəsi, evi dəyişmək və s.) də görünür.

(ardı sonrakı səhifələrdə)

Azərbaycan — Ana Vətən

DOĞMA YURDA MƏHƏBBƏTLƏ



Günel MUSTAFAYEVA

Azərbaycanımızın hər qarış torpağı mənim üçün olduqca əziz, sözlərlə, kəlmələrlə ifadə edilə bilinməyəcək qədər yüksək, müqəddəsdir. Vətən o qədər uca, əlçatmaz bir duyğu, anlayışdır ki, hər adam, hər qələm bunu söyləyə bilməz. Mən yalnız doğma Azərbaycanımızın bir guşəsi olan Qazax diyarı haqqında söhbət açmaq istəyirəm.

Qazax anamız Azərbaycanın qərbində yerləşən ən qədim və olduqca dəyərli vətən torpağıdır. Tarixən də Qazax eli bizim qədim Qafqaz Albaniyası dövlətinin qərb sərhədlərindən biri olub. Məhz Xuna və Xalxal şəhərlərinin izləri də elə bu doğma məskəndədir. Ehtimal edildiyinə görə, "Qazax" kəlməsi Kasal tayfalarının adı ilə bağlıdır. Belə ki, VIII əsrdə məşhur sərkərdə Mərvan ibn Məhəmməd "Kasal" adlı böyük yaşayış məntəqəsi saldırmış və məhz o dövrün ərəb mənbələrində bu ərazi "Qasak", "Qazak" adı ilə qələmə alınmışdır.

Şəxsən öz müşahidəmə əsasən deyə bilərəm ki, Qazaxın bir çox kəndlərində heç bir arxeoloji qazantılar aparmadan (adi torpaq becərilərkən, ya bellənərkən) yerin üst qatlarından tunc dövrünə aid (mütəxəssislərin rəyinə görə) keramik qablar, müxtəlif cür maraqlı məişət və dəyərli bəzək əşyaları tapılır. Bu çox ciddi məsələdir və belə əşyalar (tapıntılar), maddi sübutlar Azərbaycan tarixinin dərindən, əsaslı şəkildə öyrənilməsi naminə kənd əhlindən toplanmalı, qorunmalı və ümumiyyətlə bu ərazilərdə geniş səviyyədə yüksək tarixi-arxeoloji qazıntılar həyata keçirilməlidir.

Eradan əvvəl 65-ci ildə cəsur albanlar Roma sərkərdəsi Qney Pompeyin 60 minlik qoşununu məhz bu torpaqda darmadağın etmişlər. Rayondakı möhtəşəm tarixi abidələr – Qatır körpüsü, Qızılhacılı körpüsü, Kazım körpüsü, Qırmızı körpü, Damcılı mağarası, Göyəzən dağı, Qızıl qaya, Göy türbə, Avey dağındakı mağaralar bu yurdun igidlərinin tarix boyu döyüşlərdə yağı düşmənlərə qan uddurduğundan, ərənlərin məhəbbətindən, sazlı-sözlü günlərindən söhbət açır...

Bu torpaqda qeyri-adi bir şirinlik, fərqlilik, insana ana nəfəsitək ilahi doğmalıq var. Hər dəfə Qazaxa yol alarkən doğma yurdun qucağına tələsirsən, rayon bütün füsünkar təbiəti ilə insanı özünə çəkir. Hündür kəklikotulu, yemişan kolları ilə örtülmüş güllü, çiçəkli məğrur təpələrdən aşağıdakı yamyaşıl kəndlərə, bağ-bağatlı evlərə baxdıqca insan öz milləti, dövləti, tarixi və qəhrəman şəxsiyyətləri ilə fəxr edir və vətən eşqini, vətən qeyrətini anlayır. Altuntaxt yaylağının arxasında yer alan möhtəşəm İncə dərəsi isə öz möcüzəli gözəlliyi ilə insanı valeh edir. Hələ

sizə yayın cır-cıramasında buz kimi sərin, dadlı bulaqlardan deyim; insan elə bu dəmdə əlinə isti fətirdən, pendirdən, yağlı fəsəlidən, qattamadan götürüb dincəlmək, təbiətə qarışmaq, göylərə qovuşmaq istəyir.

Sizə deyim ki, qazaxlılar əzəldən dünyəvi elmə, milli, ecazkar incəsənətimizə çox meyillidirlər. Yaxşı təhsil almaq, vətən, millət, dövlət üçün faydalı şəxsiyyət kimi yetişmək qazaxlıların ən mühüm istək və məqsədlərindən biridir. Məhz elə Azərbaycanda ilk müəllimlər seminariyası da 1918-ci ildə Qazaxda açılmışdır. Qazaxın həm dəyərli söz deməkdə, həm də qorxmazcasına igidlik göstərməkdə ad-san qazanmış çoxlu oğulları var. Qaçaq Kərəm, İsrafil ağa, Əliağa Şıxlinski, Fərrux ağa Qayıbov, Nigar Şıxlinskaya, İbrahim ağa Vəkilov, Xədicə Qayıbova, Cavad bəy Şıxlinski, İbrahim ağa Usubov, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Səməd Vurğun, Osman Sarıvəlli, Mehdi Hüseyn, İsmayıl Şıxlı, Ədalət Nəsibov, Tahir İsayev, Müseyib Allahverdiyev, Miskin Həsən, Aşıq Avdı kimi şəxsiyyətlərin vətəni Qazax Azərbaycanın başqa guşələri kimi uğurla inkişaf edə-edə yaşayır, yaradır, şərəfsiz düşmənlərimizə göz dağı verir.

İgidlər vətəni Qazaxda atçılığa tarixən həvəs böyük olmuşdur. Nəzərinizə çatdırmaq istərdim ki, rayon ərazisində günü bu gün də diliboz cinsli atlar yetişdirilir. "Dağ Kəsəmən", "Qazaxça", "Ağqoyunlu", "Şıxlı", "Faxralı", "Qaymaqlı" deyəndə çaşmayasız ha... Söhbət sözün əsl mənasında şeir kimi axıcı, çəmən kimi rəngli, zərif, dünya şöhrətli Qazax xalçalarından gedir. Rayonda hər qapıda, hər evdə yerə döşənmiş cürbəcür gözəl xalıları, kilimləri, döşəkçələri görmək insanda xoş bir təəssürat yaradır.

Rayon əhalisinin böyük bir qismi əkinçilik və maldarlıqla (tarixən də belə olub) məşğul olur. Burada tərəvəzlərin, meyvələrin tamı inanılmaz dərəcədə fərqli və olduqca dadlıdır. Qazaxın ən məşhur meyvələri xar (qara) tut, ağ tut, şaftalı, nar, alma, daş armuddur. Xörəklərin əksəriyyəti isə ətli və unludur. Qurudlu xəngəl, doşablı quymaq, xaşıl, tutmac, ağsoğlaq, kətə nəyə desən dəyər.

Doğma yurda məhəbbətlə yazdığım bu sətirləri Qazaxın şair oğlu Aslan Kəmərlinin "Qumunda gül bitər" şeiri ilə bitirmək istəyirəm.

Nə deyim Vətənin böyüklüyündən?
Torpaq kiçildikcə kiçilirik biz.
Bəlkə də,
Bəlkə də elə ilk gündən
Vətənin boyuna biçilirik biz.

Vətən biz boydadır,
Biz Vətən boyda,
Yıxılsaq,
sürünsək, kiçilər Vətən.
Bir ağac qurusa,
Bir gül qurusa,
Elə o gül boyda,
O ağac boyda
Özü öz içinə çəkilər Vətən.

Bəxtimizə düşən qismətdir Vətən,
Bizim qismətimiz günəş kimidir.
Qeyrətdi, namusdu, ismətdi Vətən,
Vətən məhəbbətin elə ilkidi.

Sıldırım qayada zirvədə bitən,
Bu köklü qayanın başında çiçək.
Oğlundan, qızından yarısa Vətən
Qumunda gül bitər,
daşında çiçək.

İslam həqiqətləri

Dinlərarası dialoq:

AZƏRBAYCAN TOLERANTLIQ MƏKANIDIR

ƏLİ BABAYEV,
BDU-nun İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzinin sosioloqu

Azərbaycanın tarixi ərazisi ilk insan məskənlərindən biri olmaqla yanaşı, həm də qədim zamanlardan dini inanc və əqidələrin yarandığı, eləcə də yayıldığı məkan olmuşdur. Şamanizm, zərdüştilik, atəşpərəstlik Azərbaycanın tarixi ərazilərində formalaşan, xalqımızla bağlı olan, yəhudilik, xristianlıq, islam isə meydana çıxdıqları ilk dövrdən etibarən bu ərazilərdə yayılan dinlərdir. Müxtəlif dinlərin və dini-fəlsəfi cərəyanların yayıldığı Azərbaycanda bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşmış, milli, irqi və dini zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmamışdır.

Dinlərarası dialoq, dini tolerantlıq, dözümlülük anlayışlarının qısa və lakonik izahını verən böyük dövlət xadimi Heydər Əliyevə görə «tolerantlıq həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir».

Dinlərarası, xüsusilə dünyanın ən böyük dinlərindən olan islamla xristianlıq arasında dialoq məsələsi hələ XIX əsrin ortalarından etibarən gündəmə gəlsə də, yalnız keçən əsrin 50-60-cı illərindən başlayaraq konkret məzmun kəsb etmişdir. 1965-ci ildə «Kilsənin qeyri-xristian dinləri ilə qarşılıqlı münasibətləri haqqında» bəyannaməsinin qəbul edilməsi ilə bu proses yeni bir mərhələyə daxil olmuşdur.

Bəyannamədə göstərilirdi ki, kilsə xristianlarla bərabər Vahid, hər şeyə Qadir, Əbədi və Əzəli, Rəhmli Allaha ibadət edən müsəlmanlara hörmətli münasibət bəsləyir. Müsəlmanlar Allahın hökmlərinə İbrahimin əməl etdiyi kimi əməl etməyə çalışır, Məsihin Allah olduğunu etiraf etməsələr də, onun peyğəmbərliyini qəbul edir, onun bakirə anası Məryəmə hörmətlə yanaşır, dirilməyə, sorğu-sual gününə etiqad edirlər, Allahı namaz, zəkat və orucla uca tuturlar. Kilsə müsəlmanlarla dialoq məsələsinə böyük əhəmiyyət verir, hamını keçmişi unutmağa və qarşılıqlı anlaşmaya çağırır. O vaxtdan etibarən xristian-islam dialoquna həsr olunmuş bir sıra möhtəşəm tədbirlər keçirilmişdir. 1977-ci ilin martında İspaniyanın İslamla tarixi tanışlığı olan Kordova şəhərində «Mühəmmədə və İsaya İslamda və xristianlıqda iman» mövzusunda II Beynəlxalq islam-xristian konqresi dinlərarası dialoqun aktual problemlərini müzakirə etmişdir. Belə tədbirlərdən biri də 1998-ci ilin noyabrında Ankarada dinlərarası dialoq məsələsinə həsr edilmiş beynəlxalq elmi konfrans olmuşdur.

11 sentyabr 2001-ci ildə Nyu-York və Vaşinqtonda baş verən faciəli hadisələrdən sonra dinlərarası, dövlətlərarası münasibətlərdə tolerantlıq neqativ məcraya yönəlsə də, beynəlxalq təşkilatların, yüksək intellekt sahiblərinin, əsl din xadimlərinin, din tərəfdarlarının birgə səyi nəticəsində münasibətlər tarazlaşmış, terrora qarşı mübarizə dinindən, irqindən, millətindən asılı olmayan beynəlxalq müstəviyə keçmişdir.

Bu münasibətlə 10-11 oktyabr 2002-ci ildə Bakıda ATƏT-in xəttilə «Müasir cəmiyyətdə dinin rolu: terrorizmlə mübarizə yollarının axtarışı» mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfrans müasir cəmiyyətdə münaqişələrin qarşısının alınmasında, terrorizmə, ekstremizmə və təcavüzkar separatizmə qarşı mübarizədə dinin rolu, həmçinin Böyük İpək yolu məkanında dinlərarası və mədəniyyətlərarası dialoqun əhəmiyyəti məsələlərinin müzakirəsinə həsr olunmuşdur.

Dinlərarası dialoqda dinlərin insanlığa, bəşər sivilizasiyasına xidmətləri nəzərə alınmalı və bu gün də həmin dinlərin daşıyıcıları bəşəriyyət qarşısındakı məsuliyyətlərini dərk edərək dialoqa qoşulmalıdırlar. Bu gün dinlər, hər şeydən əvvəl, bəşəriyyətin ağrılarına son qoymağa çalışmalı və ümumbəşəri dəyərlər təbliğ etməlidir. Quranın bir çox hökm və çağırışları bu baxımdan aktualdır. Xüsusilə də islam dinə çağırışda zor işlədilməsinin əleyhinədir. «Dində məcburiyyət yoxdur» (Əl-Bəqərə, 256) deyə, etiqad azadlığı prinsipinin əsasını qoyan Quran müsəlmanları öz dinlərini tutarlı dəlillər və gözəl öyüd-nəsihətlə təbliğ etməyə çağırır: «İnsanları hikmətlə və gözəl moizə ilə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru olanları da daha yaxşı tanıyır!» (Ən-Nəhl, 125).

Quran səmavi dinlərlə dialoqun əsasında yalnız bir olan Allaha ibadəti qoyur və Mühəmməd peyğəmbərə belə əmr edir: «Söylə: «Ey kitab əhli! Sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! (O kəlmə budur:) «Allahdan başqasına ibadət etməyin, ona şərik qoşmamaq və Allahı qoyub bir-birimizi Rəbb qəbul etməyək!» (Ali-İmran, 64).

Dialoqda məqsəd kimisə hansı əqidəninsə düzgünlüyünə inandırmaq, kiminsə etiqadını dəyişdirmək olmamalıdır. Digər tərəfdən, dinlərarası dialoqun geniş vüsət aldığı indiki şəraitdə diqqət dinləri bir-birindən ayıran özəl xüsusiyyətlər üzərində deyil, onları birləşdirən müştərək cəhətlər üzərində cəmləşdirilməlidir.

Azərbaycanda tolerantlığın keçmişdə və bu gün yüksək səviyyədə olması hamı tərəfindən etiraf olunası bir həqiqətdir. Hətta Azərbaycanın dövlət-din münasibətləri modelinin ixrac edilməsinin zəruriliyini söyləyən xarici diplomatlar, yüksək səviyyəli din xadimləri, mütəxəssislər də var. Xüsusilə də BMT tərəfindən təsis

olunmuş Beynəlxalq Tolerantlıq günü konfransının Bakıda keçirilməsi heç də təsadüfi hal deyildir. ATƏT-in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosunun keçmiş rəhbəri Jerar Ştudman etiraf etmişdir ki, «Azərbaycanda dini dözümlülük heç də yeni konsepsiya deyildir. Bu ölkə yüz illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına, dözümlülüyünə bariz nümunə ola bilər. Biz onu ümumi mədəni irsimizə münasibətdə nümunə göstərə bilərik».

Tolerantlıq, dini dözümlülük haqda dediklərimizi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həmin konfransın iştirakçılarına müraciətindəki fikirlə tamamlaya bilərik: «Ölkəmizdə müxtəlif konfessiyaların nümayəndələri tərəfindən nümayiş etdirilən qarşılıqlı ehtiram, konstruktiv əməkdaşlıq, həmçinin ümumbəşəri mənəvi dəyərlərin mənimsənilməsi yolunda görülən işlər olduqca yüksək qiymətləndirilir və Azərbaycanı tolerantlıq baxımından bir çox ölkələr üçün örnək hesab etməyə imkan verir. Bu gün sivilizasiyaların toqquşması və qarşıdurması konsepsiyasına tərəfdar çıxanlar zəngin tolerantlıq ənənələrinə malik olan, Şərqlə Qərb arasında körpü rolunu oynayan bir ölkə kimi Azərbaycanın təcrübəsindən ibrət götürə bilərlər».

Ədəbiyyat

1. «Qurani-Kərim» (ərəbcədən tərcümə edənlər Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı-Ankara, 1997.

2. Əliyev Heydər. Allahın yolunda hamımız bir olaq. Bakı, 1993.

3. Əhədov A.F. Azərbaycanda islamın modernləşdirilməsi. Bakı, 1995.

4. Qurbanov Ə.C. Beynəlxalq münasibətlərdə din-islam amili. Bakı, 2000.

5. Jdanov N.V. Исламская концепция миропорядка. – Moskva, 1991.

İSLAM DİNİ İNSANIN ƏXLAQ VƏ TƏRBİYƏ DƏRSLİYİDİR

Sevda MAHMUDOVA,
Çingiz AĞAYEV,
BDU-nun İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin əməkdaşları

İslam dini böyük-kiçik, qadın-kişi, müsəlman və yaxud qeyri-müsəlman olmasına baxmayaraq hər bir insanı sağlam və ağıllı, düşüncəli, yüksək təfəkkürlü görmək istəyir.

Hələ Azərbaycan Demokratik Respublikası dövründə islami biliklər, onların izahı, öyrənilməsi və təbliğatı yönündə böyük işlər görülmüşdür. Lakin sovet hakimiyyəti illərində islam dini dövlət nəzarətində saxlanılan, heç bir real gücə malik olmayan bir qurum idi. Uzun illər ərzində dövlət strukturlarında dini biliklərı təmin edənlərin savadsızlığından və ya siyasət dini dünyagörüşü əvəzlədiyindən Azərbaycanda dini biliklər əhalinin geniş təbəqələrinə, xüsusilə gələcəyimiz olan uşaqlara heç vaxt olduğu kimi çatdırılmamışdır. İndiki dövrdə isə islam dininin ayrı-ayrı məzhəb və təriqətləri arasındakı çəkişmələrin Azərbaycandan da yan keçməməsi, bəzən müəyyən qüvvələrin onların təsirinə düşməsi təəssüf doğursa da, etiraf edilməlidir ki, ölkəmizdə dinin elmi əsaslarla təbliğatı istiqamətində son zamanlar uğurlu addımlır atılmağa başlanılmışdır.

Bu baxımdan Azərbaycan Respublikasının Konstitusiyasında din haqqında yazılan müddəalara tam əməl olunarsa, dinin reallığı ilə əhaliyə çatdırılması və düzgün qavranılması mümkün sayıla bilər.

Əlbəttə, islam dini bütün dünyada haqsızlıqların ortadan qaldırılmasını və insanlar arasında ədalətli münasibətlərin yaranmasını istəyir və bu istiqamətdə inkişaf edir. Bu din insanların sağlam ruhda yetişməsini, ortaq bir nöqtədə birləşməsini istəyir.

İslam dini özünün inancları, axlaqi dəyərləri, ata-ana-övlad münasibətləri, ibadətləri ilə insan davranışlarının hərtərəfli göstəricilərini özündə birləşdirən bir qurumdur.

İslam dini insanların yaşamaq haqqı olduğunu göstərməkdə, yaranışlarından ölümünə qədər hər hansı bir şəkildə, hər hansı bir gerçəkliyi ilə insanların yolunu işıqlandırmaqda davam etməkdədir. İslam dini insan və bəşəriyyət üçün yararlı olan hər bir şeyi özündə əks etdirir.

İslam dini yarandığı dövrdən indiyə qədər ciddi dəyişikliklərə məruz qalmışdır. Bütün bunlar istər-istəməz islam ideologiyasına, bu dinin bütün ünsürlərinə təsir göstərir, islama olan münasibətdə öz ifadəsini tapır. Dünyada baş verən çox mühüm ictimai-siyasi, iqtisadi və mədəni hadisələr islam ideologiyasına da təsir göstərir.

İlahiyyatçı alimlərin də təsdiqlədiyi kimi, islam dünyada olan dinlərin ən mükəmməli, ən müfəssəli və ən kamilidir. Bu din bütün dövrlər üçün qiymətli və yararlıdır.

İslam dini xeyir və şəri bir-birindən ayırmağı, elmə, biliyə can atmağı, ailəməişət, ictimai həyat normalarına riayət etməyi, ata-anaya, böyüklərə, ağsaqqallara, uşaqlara hörmət etməyi və başqa müsbət keyfiyyətləri özündə əks etdirir. Bu din intizamlı olmağı, işdə məsuliyyət hiss etməyi, insanın öz hərəkətlərinə nəzarət etməyi, ancaq xeyirxah əməllərlə məşğul olmağı öyrədir. O, insanları bəd əməllərdən çəkinməyə və həmişə yalnız yaxşı işlər görməyə səsləyir.

İslam dini insanların yaxşı həyat tərzini, yaşayış qaydalarını, əxlaqi-etik normalarını müəyyən edir. O, hər bir kəsə bu dini dərindən duymağı və elmi cəhətdən başa düşməni tövsiyə edir və öyrədir.

İslam dini bəşəriyyət üçün dünyagörüşü xarakteri daşıyır. İslami biliyə sahib olan insan onun aydınlıq yolunu görə bilər, çox-allahlığın, küfrün, əxlaqsızlığın islama zidd olduğunu başa düşər. Təəssüf ki, bir çox müsəlmanlar islamı kifayət qədər öyrənə bilmədiklərinə görə bu dinin gözəlliklərini öz həyatlarında əks etdirə bilməmişlər.

İslam dini mənəvi və maddi aləmin konsepsiyasıdır. İslam dini insanın axlaq dərsliyidir. İslam dinini bilən hər bir şəxs bu dinin digər dinlərlə müqayisədə böyük üstünlüklərini görə bilər. Bu dinin gözəlliklərindən bəhrələnən və onun qayda-qanunlarına əməl edən hər bir şəxs doğrudan da həyatda xoşbəxt ola bilər, rahat yaşaya bilər. Bunun üçün isə mütləq islam dinini düzgün başa düşmək lazımdır. Bu din rəng, dil, irq və millət ayırd etmədən hər kəsi insan olduğu üçün bərabər tutur.

Ədəbiyyat

1. Aslanova R. İslam və mədəniyyət. Bakı, 2002

2. Balayev M. Azərbaycanda islam ideologiyası və onun mahiyyəti. Bakı, 1995

3. Belyayev Y.A. Müsəlman təriqətləri. Bakı, 1991.

4. Qurbanov Ə.C. Beynəlxalq münasibətlərdə din-islam amili. Bakı, 2000

5. Jdanov N.V. Исламская концепция миропорядка. Moskva, 199.

СОВРЕМЕННАЯ НЕМЕЦКАЯ ПОЛИТИЧЕСКАЯ ЛЕКСИКА

Лятифа МАМЕДОВА,
Старший преподаватель
Азербайджанского Университета Языков

Понятия политической лексики чрезвычайно широкое, к нему относится вся терминология международных отношений и мировой экономики, реалии внутриполитической и экономической жизни страны, все обозначения связанные с политическим устройством и общественно-политической жизнью других стран. Помимо лексики терминологического характера, в состав политического лексикона входит значительное число слов специфического звучания, слов, за которыми стоит целый комплекс политических представлений и понятий.

Две ведущие тенденции определяют состав политического словаря:

1) Тенденция к точности и однозначности, требующая полного наименования тех фактов, о которых идет речь, их официально установленных названий; она определяет большую терминологичность общественно-политического словаря.

2) Тенденция к нетерминологичной образности, яркости слова, эмоциональной оценочности; эта тенденция противоположна первой.

Если первая тенденция обеспечивает относительную стабильность политичекого словаря, то вторая, заставляет его меняться, искать новые средства экспрессивной образности. Первая тенденция порождает большое число аналитических названий – имен официального характера, вторая стремится к замене сложных названий более компактными и менее официальными.

Тенденция к точности и однозначности сочетается со стремлением к обьективности; тенденция к экспрессивности пронизывает лексику острой партийностью.

В развитии политической лексики и фразеологии наблюдаются еще две другие полярные тенденции. Одна из них направлена на «затушевывание» каких-то остых моментов, на смазывание непопулярных сегодня в общественных кругах намерений и планов. Другая тенденция разоблачительная, она продиктована стремлением сорвать маску с лицемерной фразеологии, эта тенденция отмечает собой деятельность прогрессивных политических деятелей, журналистов.

Политическая лексика из интернационализмов и их немецких калек. Для носителей языка не имеет значения, является ли то или иное иноязычное слово интернациональным. Для них это просто не стандартная лексика иностранного происхождения. Политический лексикон широко известен широким кругам носителей языка. Нас же интересуют лишь те словарные единицы, которые возникли в течение последних тридцати лет, в основном наиболее «молодые» и актуальные. В значительной степени это не только новые, но и преходящие слова.

Значительную часть международной политической терминологии составляют названия внешнеполитических организаций, сложившихся в течение этого времени.

Большинство из этих названий употребляются в виде иностранной аббревиатуры и немецкого развернутого названия, например:

UNO (UN) – Vereinten Nationen

OAU – Organisation der Afrikanischen Einheit

OCAS – Organisation der Zentralamerikanischen Staaten

OPEC – Organisation ölexportierender Länder

IAEA – Internationale Atomenergieagentur

FIR – Internationale Vereinigung der Widerstandskämpfer

EFTA – Europäische Freihandelsassoziation

И это вполне понятно, поскольку часть названных организаций либо возникла не в странах немецкого языка, либо страны немецкого языка

не участвовали в их учреждении.

Международные или европейские организации, в учреждении которых участвует какая – либо страна немецкого языка, обычно с самого начала своего существования имеют наряду с английским, французским или другим названием или аббревиатурой соответственно немецкие, например:

EWG – Europäische Wirtschaftsgemeinschaft (с участием ФРГ)

EVG–Europäische Verteidigungsgemeinschaft (с участием ФРГ)

RSV – Republik Südvietnam

IWF – Internationaler Währungsfonds (с участием ФРГ)

Современная немецкая внешнеполитическая терминология включает значительное число устойчивых сочетаний, которым соответствуют аналогичные выражения в других языках: friedliche Koexistenz (мирное сосуществование), atomwaffenfreie Zone (безатомная зона), gegenseitige Reduzierung von Streitkräften und Rüstungen (взаимное сокращение вооруженных сил и вооружений).

Многие слова политического содержания, принятые в капиталистической прессе, отражают не только определенные политические установки господствующих классов, но и пропагандируют некоторые, выгодные этим классам идеи в той степени, в которой они могут содержаться в «нейтральном» слове. Западная буржуазная печать, говоря о партизанском движении народно-освободительного характера, избегает употреблять слово Partisanen. Вместо него употребляется der Guerillas (die Guerillas). Слово Partisanen напоминает о героизме народного партизанского движения в годы второй мировой войны, а эти положительные ассоциации не в интересах соответствующих кругов. Поэтому слово Partisanen либо игнорируется, либо употребляется лишь тогда, когда речь идет о советских партизанах.

Для политического лексикона, принятого в капиталистическом мире, типичным является противопоставление понятий Ost/West. Слово Ost в заподном лексиконе – это все то, что связано со странами социалистического лагеря. Слова, как Ostblockländer, Ostblockstaaten, Ostpolitik, Ostpolitiker выражает не только зачастую недружелюбие к странам социализма, но за ними стоят соответствующие политические концепции.

Слово West (Westen, westlich) олицетворяет понятие «все страны капиталистической Европы и США», в таком значении это слово употребляется и в социалистической печати.

Современная терминология внешней политики включает значительное число иноязычных слов в новом политическом значении. Среди них прежде всего надо назвать bilateral (лат. двусторонний) и multilateral (лат. многосторонний) – о договорях, переговорах между двумя (bilateral) или несколькими (multilateral) сторонами, например: bilaterales Handelsabkommen, bilateraler Austausch, bilateraler Kulturaustausch.

Новым словосочетанием является politisches Engagement. Популярным в политическом лексиконе стал также глагол sich engagieren (=sich binden, verpflichten). Das Land war in einem Bündnis engagiert; der Schriftsteller soll sich in der heutigen Zeit engagieren; С недавних пор стало употребляется в политическом лексиконе der Extremist (Rechtsextremist, neofaschistischer Extremist, linksextremistische Gruppen ...)

Ранее употреблявшееся слово Ultra встречается теперь реже.


Слова Integration, integrieren, integriert (лат.) в политическом лексиконе связаны с понятием «органичное слияние», например:

Die Bundeswehr errichtete ein „Kommando der deutschen Streitkräfte", das nicht in die NATO integriert ist.

Слово Eskalation (амер.) первоначально, употреблялось только в сочетании Eskalation des Krieges, сегодня в обобщенном значении: stufenweises Vorantreiben eines Vorgangs, Geschehens, bes. im politischen, militärischen Bereich. Встречается и новый глагол –eskalieren.

Свойственные немецкому языку сложные слова можно отметить и в политической терминологии, например Nordatlantikpakt, Südostasienpakt, Gipfelkonferenz, Passierscheinabkommen и т.д.

ƏQRƏB



Bu il baş verən hadisələr o qədər zəngin və sürətlə cərəyan edəcək ki, "Öküz ili"nin nə vaxt ötüb keçdiyini bilməyəcəksiniz. Yanvar ayında fəaliyyət dairənizi genişləndirmək istiqamətində etdiyiniz cəhdlər boşa çıxsa da, ruhdan düşməyə lüzum yoxdur. Çünki vaxtı yetişməmiş işlərə tələsik yanaşmaq yalnız zərərinizə ola bilər. Buna baxmayaraq, fevralın ikinci yarısından başlayaraq müştərək biznes sahəsində çoxsaylı uğurlarınız olacaq. Hətta nəticə sizi qane etdiyindən paralel fəaliyyətə də həvəs göstərəcəksiniz. Amma bu ehtimala lüzum yoxdur. Çünki ilin birinci yarısında təkbaşına hansısa karyeraya yetişməyiniz inandırıcı deyil. Sarı Öküzün himayədarlıq etdiyi dövr bürcünüzün dinə-imana gəlməsində əhəmiyyətli rol oynayacaq. Hətta qatı ateist olsanız da, bu aralıqda Tanrıya xoş gələn hərəkətlər edəcək, dini ayinlərə hörmətlə yanaşacaqsınız. Bu il qazancınız artsa belə, bir qədər qənaətcil olmağınız vacibdir. Şəxsi büdcənizi qorumaqsa başlıca vəzifənizə çevrilməlidir.

Çalışın ki, sevgi məsələlərində amansızlığa, eqoistliyə son qoyasınız. Əks-təqdirdə, uzun müddət başağrısına mübtəla olacaqsınız. Nəzərdən qaçırmayın ki, qəlb də, ruh da Allaha məxsusdur, onları incitmək, qırmaq Yaradana ağır gələr. Eyni zamanda mart, iyul və oktyabrda ciddi rəqiblərlə rastlaşma ehtimalınız da var. Amma özünüzü ələ almağı bacarmalısınız.

OXATAN



Sarı Öküzün hakim olduğu dövr şəxsi həyatınızda ən keşməkeşli ərəfə olacaq. Necə deyərlər, oddan-alovdan keçəcəksiniz. Nəticənin uğurlu olacaağını düşünüb bəri başdan bu kimi sınaqlara hazır olmalı, yersiz risklərə baş qoşmamalısınız. Əks - təqdirdə, nail olduğunuz çox şeyi itirə bilərsiniz. Söylədiyimiz amillər daha çox lin birinci yarısında baş verəcək. Təxminən avqustun sonundan başlayaraq itirdiklərinizi tapacaq, yarımçıq qalan işlərinizi bərpa edəcəksiniz. Bu istiqamətdə keçmiş şöhrətiniz də köməyinizə yetəcək. Əgər Mübarək Ramazana layiqincə riayət etsəniz, daha əlverişli mövqe əldə edəcəksiniz. Axı, Allah düzəltməyən işi heç kim düzəldə bilməz.

Təəssüf ki, dost sarıdan yenə də narahatçılıqla üzləşəcəksiniz. Hətta bu xoşagəlməzliyin ailə-sevgi münasibətlərinizə də mənfi təsir göstərəcəyi mümkündür. Bu səbəbdən də sevginizi qorumalısınız. Evlənmək istəyənlərsə, aprel-oktyabr aralığından istifadə etməlidir. Səhhətinizlə bağlı problemlərə gəlincə, bildirək ki, bu il ayağında yel olan "Oxatan"lar daha ehtiyatlı olmalıdır. Bundan başqa, xroniki xəstəliklər, qan dövranının normal tənzimlənməməsi sizi narahat edə bilər.

Yeni ildə bürcünüzün üzərinə düşən başlıca vəzifə keçmişə aludə olmamaq, insanlara olan mənəvi borclarınızı qaytarmaqdır. Borc deyən kimi yada pul düşdüyündən gəlin, ulduzların bu istiqamətdə verdiyi proqnozlara da nəzər salaq. Unutmamalısınız ki, qazanmaq üçün ən uğurlu dövrünüz aprel, avqust və dekabr olacaq. Bizneslə məşğul olanlar isə ən ideal ərəfə yaşayacaqlar.

OĞLAQ



İlk öncə nəzərinizə çatdıraq ki, bu il qəlbinizə yaxın olan adamlar əksər məsələlərdə sizə yardımçı olacaq. Dostlarla, qohum-qardaşla, o cümlədən qonşu və həmkarlarınızla aranızda yaranmış soyuqluq aprel ayından başlayaraq qaydasına düşəcək. Münasibətləri tənzimləmək məsuliyyəti öz üzərinizə düşdüyündən ilkin addımı da özünüz atmalısınız. İndi münaqişəli situasiyalara cəlb olunmaq vaxtı deyil. Çünki Sarı Öküz ilinin birinci yarısında işlərinizi necə qursanız, sonrakı müddətdə də elə o cür davam edəcək. Ulduzlar yazın sonlarında ciddi səhvlərə yol verəcəyinizdən narahatdır.

Çalışmaq lazımdır ki, ətrafınızda olan hər kəsə inanmayasınız. Daha çox yalandan uzaq olmalısınız. Bunu bacarsanız,


sentyabrdan etibarən nəzərdə tutduğunuz ideyaların əksəriyyəti reallaşacaq və daxili tələtümləriniz səngiyəcək. ilin sevgi amili isə əsasən özünüzdən asılı olacaq. Əgər mülayim və nəzakətli olsanız, rəğbət qazanacaq, əksinə olsa, küsüşmələr prosesi başlayacaq. Bu il sizə çoxlarının işi düşəcək. Bacardığınız qədər onlara kömək göstərin ki, rəğbət qazanasınız. 2009 yaradıcı "Oğlaq"lar üçün daha uğurlu il olacaq. Maliyyə durumunuz qənaətbəxş olmasa da, kisəniz boş qalmayacaq. İş yerini dəyişmək planlarınızı isə təxirə salın. Çünki başqa işə keçsəniz, vəzifə pilləsində yüksəlməyəcəksiniz. Səhhətinizə gəlincə, bilməlisiniz ki, 2009-cu ildə sümüklərinizi, mədə-bağırsağınızı və qandamar sisteminizi qorumalısınız.



DOLÇA

Şaxtalı yanvar və fevralın ilk dekadası (1-10) çoxsaylı çətinliklərlə üzləşsəniz də, ruhdan düşməyinizə lüzum yoxdur. Əksinə, hər bir mübarizədə əzmkarlıq göstərməklə qarşınızı kəsən maneələri dəf etməyə çalışmalısınız. Ötən dövrlərlə müqayisədə 2009-cu il ətrafınızda olan insanların sizi anlamasına zəmin yaradacaq. Artıq onlar sizi qaba, eqoist, çılğın, cığal və öz maraqlarını güdən adlandırmayacaq, əksinə, fikirlərinizlə həmrəy olacaqlar. Bu səbəbdən də dostlarınız artacaq. Mart-oktyabr aralığı isə bürcünüz üçün ən ideal ərəfə olacaq. Karyerada yüksəliş, maddi durumun pik səviyyəyə çatması, yeni və etibarlı dostlar, o cümlədən mənəvi rahatlıq həmin müddətdə sizi məmnun edəcək.

Evlənmək və yeni işlərə başlamaq üçün də şanslar qazanacaqsınız. Rəqiblərinizin xeyli zəifləyəcək, dünyaya baxışlarınız dəyişəcək. Yeni sevgi macəralarına isə çox da aludə olmayın. İlin son iki ayı müəyyən qədər gərgin fonla müşayiət olunsa da, özünüzü təmkinli aparmaqla Öküzün neqativ təsirlərini dəf edə biləcəksiniz. O ki qaldı sağlıq durumunuza, bu istiqamətdə Öküz sizi kifayət qədər qoruyacaq. Özünüzü yalnız soyuqdan qorumaqla kifayətlənməlisiniz.



BALIQLAR

İlin birinci yarısında doğmalarınızla, ələlxüsus da kiçikyaşlılarla bağlı müəyyən problemləriniz, o cümlədən yaxın dostlarınızla münaqişələriniz gözlənilir. Bunun qarşısını almaq üçün mülayim davranmalı, məntiqli çıxışlar etməli, ətrafda baş verən prosesləri düşüncəli şəkildə analiz etməlisiniz. Əks-təqdirdə, çoxsaylı çətinliklərinizlə olacaq.

Mayın əvvəllərinə qədər iş yerini dəyişmək, xarici ölkələrə səfər etmək, o cümlədən riskli addımlar atmaq fikrindən daşınmağınız vacibdir. İyundan ilin sonuna qədər nəzərdə tutduğunuz planların böyük əksəriyyəti həyata keçəcək. Bu sıraya ailə qurmaq, məşhurlaşmaq, vəzifə pilləsində yüksəlmək, həmçinin nüfuzu artırmaq kimi amillər aiddir. Ulduzlar təvəqqe edir ki, ünsiyyətdə olduğunuz hər kəslə mülayim davranın. Çünki bu il sizə kiminləsə konfliktə girməkdənsə, daha ideal planları icra etmək daha məqsədəuyğundur.

Astroloji göstəricilər sağlıq durumunuzun aprel, sentyabr və dekabr aylarında problemli olacağını göstərməkdədir. Odur ki, bəri başdan bu istiqamətdə tədbirli olmağınız məsləhət görülür. Fevraldan başlayaraq maddi durumunuz iki-qat-üçqat səviyyədə artacaq. Amma özünüz də aktivliyinizi artırıb qazanmaq istiqamətində canfəşanlıq göstərməlisiniz.

USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun
məktəblilər üçün
əlavəsi



"Dünya" məktəbində yeni il şənlikləri





Yeni il yeni arzular, yeni ümidlər deməkdir. Sanki hər şey təzələnir, dəyişir. Xoşa gəlməyən nə varsa, hamısının köhnə ildə qalacağına ümid edilir.

Gəlin Yeni ilə bir az da balacaların nəzərləri ilə baxaq. Şaxta baba, Qar Qızla əylənmək, hədiyyələr almaq və sonra isə qiş tətilinin ləzzətini görmək! Bundan gözəl nə ola bilər ki... Bax, elə "Dünya" məktəbliləri də bu gözəl anları məktəbin yolkayla, şarlarla bəzənmiş zalında qeyd etdilər.

Dekabrın 26-da üç hissədən ibarət olan tədbirdə əvvəlcə hazırlıq sinfinin, 1-ci və 2-ci siniflərin şagirdləri şənləndilər. Yolkaya, yeni ilə aid mahnılar ifa etdilər. Ikinci hissədə 3-cü və 4-cü, üçüncü hissədə isə 5-10-cu siniflərin şagirdləri əyləndilər.

4-cü sinif şagirdlərinin ifasında təqdim olunan tamaşalar isə hamını valeh etdi. Qar qız (6-cı sinif şagirdi Şirinova Esmiralda) və Şaxta baba (11-ci sinif şagirdi Məmmədli Səməd) uşaqları gözəl əyləndirdilər.

11-ci sinif şagirdləri Yeni il bayramını dekabrın 29-da qeyd etdilər.

Tədbirin hazırlanmasında yaxından iştirak edən kollektiv üzvlərinə dərin təşəkkürümüzü bildiririk.

Mədinə RZAYEVA





MƏNİM DOĞMA ŞƏHƏRİM



Azərbaycanın hər bir guşəsi mənim üçün doğmadır. Ancaq Bakı mənə daha əzizdir. Axı Bakı ana Vətənin döyünən ürəyidir. Həm də mən tarixi çox qədim olan bu şəhərdə dünyaya gəlmişəm, boya-başa çatmışam.

Bakı VI əsrdən XVI əsrə qədər ömür sürmüş qüdrətli Şirvanşahlar dövlətinin ikinci böyük şəhəri, həm də dəniz qapısı olmuşdur. Təsadüfi deyil ki, böyük Bakının incisi sayılan "İçəri şəhər", "Şirvanşahlar sarayı" məhz bu dövlətin adı ilə bağlıdır.

Min ildən çox yaşı olan "Qız qalası", əzəmətli "Qala divarları" doğma şəhərimin əbədi və alınmazlıq simvoludur. Mavi Xəzər isə onun aynasıdır, həyat çeşməsidir.

"Bakı" və "neft" sözləri bir zamanlar az qala sinonim kimi səslənib.

Amerikadan, Avropadan, Rusiyadan neft maqnatları, sahibkarlar XIX əsrdən Bakıya axışıblar :neftə sahib olmaq üçün!

Amma bu gün Bakıya yaraşıq verən "İsmailiyyə", "Səadət sarayı", "Tarix muzeyi" və daha neçə-neçə möhtəşəm binalar onların yox, azərbaycanlı oğulların – Hacı Zeynalabdin Tağıyevin, Musa Nağıyevin, Murtuza Muxtarovun yadigarlarıdır.

Bu gün də Bakı-Xəzər nefti, Azərbaycan dünyanın maraq dairəsindədir. Təki, xeyirli olsun!

Mən Bakını çox sevirəm. Doğma şəhərim gözəldir. Xüsusilə, onun heykəlləri: dahilər dahisi Nizami, lirikanın günəşi Füzuli, "Bənzərəm bir qocaman dağa ki, dəryada durar" deyib öz qiymətini verən Sabir, Şərqin musiqi ilahisi Üz. Hacıbəyov, əfsanəvi qəhrəman Mehdi Hüseyinzadə...



Mənim üçün Bakı dünyanın ən gözəl şəhəridir. Hətta, hər il sökülüb-tikilən bulvarı ilə, əhalinin istirahət saatlarında işləməyən fəvvarələri ilə, rəngbərəng reklam lövhələri ilə hasara alınan parkları və tikinti meydanları ilə də...

Amma şair S.Vurğun demişkən: "Bakının dərdi var!" Bu, Qarabağ dərdidir.

Bu dərd sağalanda Bakı Xəzərin qoynunda daha da gözəl görünəcək!

Esmiralda ŞİRİNOVA,
6-cı sinif şagirdi

ELL TEACHING PHILOSOPHY

This article has been written by a college student in class in Lincoln, Nebraska U.S. and has been sent to all TEA- 2008 alumni. The article reflects the student's philosophical views on the issue which has always been the problem of discussion for years. The problem of teaching foreign languages (English is meant in this article), training and providing qualified teachers for this purpose, improving or finding new methods, making them more effective in classroom situations is being discussed today and I guess it will be the object of study for years hereafter.

Thought the teachers and those who teach English as a foreign language might find it interesting, decided to have it published. This is one approach out of many.

Even though I will not be an ELL teacher, as an elementary school teacher I will have many opportunities to have English Language Learners in my classroom. One of the most important things to keep in mind, I have learned, is to give ELL students a fair chance. Instead of taking the easy way out and assuming a child has academic struggles, I will make sure to spend time observing and analyzing a child to see if he or she is struggling because of language or from other reasons. There are many styles of ELL classrooms, and many ways to teach ELL. There are also both good and bad methods to use.

I think the best way to provide an education for ELL students is to make sure they have the opportunity to practice their English in many contexts and domains. There will be writing, reading, role-playing, informal conversations, group or partner work, and many other interactive, fun ways for students to continue to learn English. Students learn much more from actively using the language than just studying about it. I also think it is important to teach the language in the context of other subjects. Every subject can be adapted to fit the needs of ELL students with some effort on the teacher's part. This way the students is acquiring academic knowledge in other subjects, as well as learning English. It is unfair solely to focus on language because it puts the student far behind their English speaking peers.

The method of assessment I foresee myself using is analytic because it caters best the students' needs. I also think this method can be used for ELL and regular students. Something I want to be sure to work on is communicating with the



parents of ELL students. I feel like this could be a struggle because of differences in language and culture, but I really want both the parents and students to know that they are welcome in my classroom and I am going to do the best that I can to facilitate the child's learning. Coming to this country without knowing the native language is scary for children, but it must be even more terrifying for their parents. A kind person in their lives who cares can make all the difference.

Presented by **Eldar ZEYNALOV,**
English teacher at "Dunya" school

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

QAFİYƏ – misraların sonunda, yaxud misraların içində səscə bir - birinə uyğun, fonetik tərkibcə həmahəng, şeirə məxsusi gözəllik, ahəng, aydın, səlis forma verən sözlər. Bəzi hallarda şeirin misralarındakı ilk sözlər də həmqafiyə olur. Qafiyənin səslənmə, işlənmə xüsusiyyətinə görə, əsasən, bu növləri vardır: zəngin, yaxud tam qafiyə, yoxsul qafiyə, göz qafiyəsi, qulaq qafiyəsi, daxili qafiyə.

QARAVƏLLİ – yumor səciyyəli nümunə. Adətən dastan, yaxud nağıl danışanlar dinləyicilərin diqqətini cəlb etmək üçün gülməli qaravəlli danışır, sonra mətləbə keçirlər. Qaravəlliyə nümunələr: "Hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik eylər köhnə hamam içində." "Qarışqa şıllaq atdı, dəvənin budu batdı" və s.

QƏHRƏMAN – bədii əsərdəki insan surətinə qəhrəman deyilir. Bəzən qəhrəman əvəzinə "iştirak edənlər", "personaj" terminləri də işlədilir. Ədəbiyyatşünaslıqda "müsbət qəhrəman", "mənfi qəhrəman" terminləri də işlənir.

QƏSİDƏ – Şərq poeziyasında çox yayılmış lirik şeir formalarından biri. Həcmcə on beş beytdən çox olur. Qəsidədə, bir qayda olaraq, müəyyən şəxs, yaxud hadisə təntənəli üslubda tərif olunur. Qəsidənin birinci beyti həmqafiyə, sonrakı beytin birinci misrası sərbəst, ikinci misra birinci beytlə həmqafiyə olur: **aa, ba, ca, ça** –şəklində. Son beytdə müəllifin təxəllüsü olur.

QƏZƏL – Şərq şeirində lirik janrın ən çox yayılmış formalarından biri. Həcmcə, əsasən, **5, 7, 9** beytdən ibarət olur. Qəzəlin birinci beyti həmqafiyə olub **mətlə** adlanır. Birinci beytdən sonrakı beyt daha qüvvətli, mənalı, gözəl olarsa, ona **hüsni-mətlə** deyilir. Qəzəlin son beyti **məqtə** adlanır. Son beytdən əvvəlki isə mənalı, cəlbedici, gözəl olduqda bu, **hüsni-məqtə** sayılır. Qəzəlin ən mənalı, dərin fikir ifadə edən beyti **şah beyt** adlanır. Qəzəlin qafiyə sistemi qəsidədə olduğu kimidir.

QIFILBƏND – aşıq yaradıcılığına aid şeir növü. İki aşıq daha çox qoşma çəklində bir-birinə tapmaca səciyyəli şeir-qoşma–qıfılbənd söyləyir. Və onlar bir-birlərinə söylədikləri qıfılbəndləri açmağa çalışırlar. Aşıq şeirində bayatı şəklində də qıfılbəndlər olur. Buna bağlama deyilir.

QİTƏ – Yaxın və Orta Şərqdə yalnız əruz vəznində yaranan lirik şeir. Əsasən ictimai-siyasi, elmi-fəlsəfi, etik-didaktik məzmunda olur. İki beytdən az, iyirmi beytdən çox olmur. Qafiyə quruluşu: **ab, cb, çb, db** və s. şəkildə olur. Qitədə müəllifin təxəllüsü olmur.

QOL – xalq dastanlarının məzmunca bir-birilə möhkəm bağlı olan hissələri. Çox vaxt konkret, bitmiş süjetli olub müstəqil də olur. "**Koroğlu**" dastanının qolları kimi.


QOŞAYARPAQ – Azərbaycan şeirinin bir o qədər də geniş yayılmamış növlərindən biri. Beş bənddən ibarət qoşmadır. Birinci bəndi haçaqafiyə (**a b a b**), qalan bəndlər isə qoşmada olduğu kimidir (**cccb, çççb, dddb**). Əsas məxsusi səciyyəsi **2, 3, 4, 5,**-ci bəndlərinin ilk misralarının hərəsində 2 həmqafiyə sözün işlənməsi və onların digər iki misrada da daxili qafiyə şəklində təkrar olunmasıdır. Beləliklə, hər bəndin 3 misrasında 6 həmqafiyə söz işlənir.

QOŞMA – türkdilli xalqların poeziyasında ən çox yayğın olan lirik formalardan biri. Bir qayda olararaq 11 hecadan, hər bəndi 4 misradan, 5-6 bəndən ibarət olur. Qafiyə quruluşu belədir: **abab, cccb, çççb, dddb.** Qoşmanın son bəndində müəllif adını, təxəllüsünü göstərir. Buna görə həmin bənd **möhürbənd, tapşırmabənd, təxəllüsbənd** adlanır. Qoşmanın **cığalı qoşma, ayaqlı (müstəzad)** qoşma kimi növləri vardır.

QROTESK – ədəbi əsərdəki surətə fantastik səciyyə verən ifrat mübaliğə. Qrotesk inandırıcılıq həddini keçir, təsvirə şərtilik verir və ən əsası, surətin formasını dəyişdirərək, onu həqiqətdən uzaqlaşdırır. Bu, sənətkar fantaziyasının gülüş və qəhqəhə ilə dolu sərbəst uçuşu, şən və oynaq oyunudur.

Hazırlayanı:
Bəhlul ABDULLA

KİTABXANAMIZIN YENİ KİTABLARI




Dil, ədəbiyyat və onların tədrisi metodikasının aktual problemləri. – Bakı: Mütərcim, 2008. – 184 s. – ISBN 978-9952-28-016-6



Şusinski F. Şərq musiqisinin peyğəmbəri. – Bakı: Azərnəşr, 2008. – 128 s.




İrmak S. Xoşbəxt bir yuva üçün... – Bakı: Nurlar, 2008. – 151 s. – ISBN 978-9952-439-26-7



Topbaş O. Könül bağçasından məhəbbətdəki sirr. *– Bakı: İpək Yolu Nəşriyyatı, 2008. – 352 s. – ISBN 978-9952-8112-9-2*



Munday J. Introducing translation studies: theories and applications. 2nd ed. – London; New York: Routledge, 2008. – 236 p. – ISBN 978-0-415-39693-6



Xəzər İngiliscə-Azərbaycanca böyük lüğət (6 cilddə). 3-cü cild İ-N. – Bakı: Xəzər Universitəsi Nəşriyyatı, 2008. – 664 s. – ISBN 978-9952-20-023-2

Robinson D. Becoming a translator: an introduction to the theory and practice of translation. 2nd ed. – London; New York: Routledge, 2007. – 301 p. – ISBN 0-415-30033-9





Гасанова Л. Музыкально-хореографическое единство в классическом экзерсисе (учебно-методическое пособие) / Л. Гасанова, А. Керимли. – Баку: Марс-Принт, 2008. – 356 с. – ISBN 978-9952-809-98-5

Şusinski F. Sadıqcan. – Bakı: Azərnəşr, 2007. – 124 s.



Hazırlayanı: Lyudmila SOTOVA

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org